UNİKAL

№35 (2169) 22 sentyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Qarabağın erməni sakinləri Bakıdan yardım istədi: Yeni proses başlayır



## Elman Rüstəmov "sığorta biznesi"ni gücləndirir

Bildirək ki, yerli media "Bank Respublika"nın Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin keçmiş sədri Elman Rüstəmova məxsus olduğunu yazır. Belə ki, uzun illər boyunca həmin banka Xədicə Həsənova rəhbərlik edib. Mətbuatın yazdığına görə, o, E. Rüstəmovun ən yaxın və sədaqətli kadrlarından biri olub. Yerli KİV həmçinin bir müddət əvvəl onu da bildirirdi ki, "Bank Respublika"da ən böyük paya malik olan Quliyevlər ailəsi Elman Rüstəmovun yerliləri (bəzi məlumatlara görə qohumudurlar-red.) olmaqla yanaşı, biznesini etibar etdiyi adamlar kimi tanınıb. İddia edilirdi ki, "Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyev qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər . Bura Rüstəmova aid bəzi maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair aiddir. Məsələn, Rüstəmova məxsus olduğu deyilən "Səba Broyler" şirkətinin rəhbəri Namiq Quliyev "Bank Respublika"nın prezidenti Natiq Quliyevin qardaşıdır.

Səh.8

## "Dünya gördü ki, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi təmin olunur"



Milli Məclisin komitə sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, lokal xarakterli antiterror tədbirlərinin əhəmiyyətindən, bu tədbirlər zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinin hərbi hədəfləri mülki obyektlərin yaxınlığında yerləşdirməsinin məqsədindən...

Səh.4

## Hacıbala Abutalıbovun ləğv edilən "yeyinti yeri"nin gizlinləri...



Yola salmaq üzrə olduğumuz həftə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv edildi. Bununla bağlı ölkə başçısı Fərman imzalayıb. Nazirlər Kabinetinə həmin Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Səh.5

## Spiker konfrans iştirakçılarını antiterror tədbirləri barədə məlumatlandırdı



Asiya qitəsində həmrəylik, əməkdaşlıq və parlament diplomatiyasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikasının 2024-2025-ci illər üçün Asiya Parlament Assambleyasının sədrliyinə namizədliyini rəsmən irəli sürüb. "Unikal" xəbər verir ki, bunu Asiya Parlament...

Səh.3

# "Mənə dedi ki, sənin qarşını kəsənin qulağını buraram" - Briliant Dadaşova



***"İllər əvvəl Mərkəzi Komitədə Fikrət Əhmədov adlı şəxs incəsənət nümayəndələrinə nəzarət edirdi. Günlərin bir günü bəstəkar Faiq Sücəddinovla onun evinə getdik. Onun gənc qızı Mehriban Əhmədova "Ay gözümün nuru anam" adlı mahnını bəstələmişdi. Fikrət Əhmədov oxumağıma qulaq asandan sonra dedi ki, çox təsirləndim. Söylədi ki, "birdən qarşını kəsən, sataşan olsa, mənə mütləq de. Bəzi vəzifədə oturan insanlar bizim gənclərimizin qarşısını alırdı. Dedi ki, qızım Mehribana, ya da Faiq Sücəddinova de, mənə çatdırsın. Sənin qarşını kəsən insanın qulağını buraram". Sonradan elə insanlar oldu, amma demədim".***

Bu sözləri Xalq artisti Brilliant Dadaşova "Gül kimi şou" verilişində deyib. Müğənni sənətə yeni gəldiyi vaxtlarda başına gələnlərdən danışıb: "Qarşımı kəsmək istəyən insanlar olub. O zamanlar bəstəkar Rafiq Babayev mənə atalıq, qardaşlıq edib. Bəzi şeyləri Rafiq müəllimə deməyə utanmışam kı, mənə nələrsə söylədilər və ya evimizə zəng gəldi... Amma zaman tapıb bunlar az da olsa Rafiq müəllimə sızdırırdım. 1986-cı ildə universitetdə oxuduğum illərdə Rafiq Babayev məni Azərbaycan Televiziyasına solist götüzdürdü. Hələ birinci kursu bitirməmiş AzTV-nin solisti idim. Çox gözəl günlər idi... Böyük şərəf idi ki, Şövkət Ələkbərovanın, Rəşid Behbudovun solist olduğu məkandayam.

Sonra "cəbhə" gəlib məni AzTV-dən işdən çıxartdı. 1988-ci ildə "Haydı-haydı igidlərim birləşin" mahnısını oxumuşdum. O zamanlar AzTV-nin rəhbərliyi mənə bu mahnını oxumağıma görə, töhmət verdi. Dedilər ki, bir daha belə şeylər təkrar olmasın". Dadaşova Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra yenidən AzTV-də solist kimi çalışmağa başladığını əlavə edib(axsam.az).

# Faiq Ağayev Snop Doqu ələ saldı - "Yevlaxa gəl"

***Bir neçə gün öncə tanınmış reper Snop Doqun Azərbaycana qarşı hörmətsizlik etməsi barədə xəbər yayılmışdı. Belə ki, o, öz sosial şəbəkə hesabında "Mənim sevimli erməni xalqım. Mən sizi düşünürəm və Ermənistandakı, Artsaxdakı eləcə də dünyanın hər yerindəki bütün erməni xalqına sevgilər göndərirəm. Mən sevgi və sülh gətirirəm, hər kəsə güc diləyirəm. 23 sentyabrda gəlirəm", yazmışdı.***





O, qondarma respublikada "check in" edərək, "Artsax"ı ayrı bir respublika kimi qeyd etmişdi. Ermənistanda vəziyyətin qarışıq olması səbəbi ilə reperin konsertinin ləğv olunması məsələsi gündəmə gəlib. "Unikal" lent.az-a istinadən bildirir ki, Azərbaycanın Xalq artisti Faiq Ağayev Snop Doqla bağlı paylaşım edərək, onu zarafatla Yevlaxa dəvət edib.

**"Yevlaxa gəl Yevlaxa**
**Tüstü sal seyrangaha"**

İzləyiciləri zarafatla Faiq Ağayevin mahnı qoşmaq məsələsində Rövşən Binəqədiliylə yarışdığını yazıblar. Xalq artisti Binəqədilinin daha operativ olduğunu söyləyib.



# "Sən o dünyada məndən üzr istəyəcəksən" - Cavanşir Məmmədov

***Əməkdar artist Cavanşir Məmmədovla aparıcısı Lalə Azərtaş arasındakı qalmaqal bitmək bilmir.***

C.Məmmədov aparıcının "Heç yuxunuzda da sizdən üzr istəməyəcəyəm" sözlərinə cavab verib. "Yaxşıya doğru" verilişində qonaq olan müğənni Axərtaşa səslənərək, bunları deyib: "Lalə, sənin mənimlə nə qəsdi-qərəzliyin var? Deyirsən ki, xalqın gözü tərəzidir. Amma sənin gözün tərəzi deyil. Sən tərəzini düzgün görə bilmirsən. Sosial şəbəkədə xalqın nümayəndələrinin mənim məsələmlə bağlı yazdıqları şərhlərə gəldikdə isə onların kimliyini bilmirəm ki, soruşum sən niyə bu sözləri yazmısan. Elə şey etsəm, üzümə tüpürərlər. Xalqın gözü tərəzi idi, onlar da fikirlərini şərhlərdə yazdılar. Lalənin yerində olsaydım, yazılan şərhlərdən nəticə çıxarardım və deyərdim ki, "bu məsələ məhkəmə tərəfindən sübuta yetirilib, bu insan dələduzdur ( keçmiş kürəkəni, Türkiyə vətəndaşı Mustafa Kemal İbli - red.). Hansı söhbətlər olubsa, mənə halal edin. Məlumatı belə dedilər, mən də belə çatdırdım". Amma sən elə danışmalı deyildin. Sən gözləməli idin nəticəni. Lalə, verilişində zərərçəkən olan mənə 10, zərərvurana isə 30 dəqiqə zaman ayırırsan danışmağa. Olmaz belə şeylər etmək. Mən bura şikayətə gəlməmişəm. Sən Lalə, verilişində gərək düzgün mövqe tutardın. Mənim səninlə nə işim var? Sən məndən üzr istəyəcəksən. Bilirsən harada? O dünyada Lalə, sən məndən üzr istəyəcəksən. O dünyada sənə təhlil edəcəklər ki, neyləmisən və nə səhvlər görmüsən. Başının üstündə dayananda məndən üzr istəyəcəksən. Qəbirdə insandan hesabat alırlar... Sən istədin-istəmədin, mənə artıq maraqlı deyil. Sənin adını çəkmirəm, sən çıxıb haqqımda danışırsan. Xahişsiz mən bu məsələyə nöqtə qoyuram".

Qeyd edək ki, C.Məmmədovla L.Azərtaş arasındakı qalmaqala səbəb ifaçının keçmiş kürəkəni, Türkiyə vətəndaşı Kemal Mustafa İblini verilişinə çıxartması olub. Mustafa aparıcıdan ona şər atıldığını deyərək, yardım istəyib. Mustafa İblinin Cavanşir Məmmədovdan 13 000 manat və 126 500 dollar aldığı və geri qaytarmadığı iddia olunub. M. İbli barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Mustafa təqsirli bilinərək 6 il 6 ay azadlıqdan məhrum edilib.

# "Nə gördüyümüzü istəyirdik, nə də istədiyimiz olurdu" - Əməkdar artist

***"Bizə xırda şeylərlə xoşbəxt olmağı öyrətdilər". Bu sözləri Əməkdar artist Vəfa Zeynalova instaqram hesabında paylaşıb.***



Aktrisa "Nə hər gördüyümüzü istərdik, nə də hər istədiyimiz olurdu. Bizlər varlığa şükür, yoxluğa səbr edən uşaqlar idik" sözlərini əlavə edib.



# Bu, qiymətlərin əlavə artımına səbəb ola bilər - Proqnoz

***Yüksək inflyasiya şəraitində büdcə xərclərinin irihəcmli artımları inflyasiya təzyiqlərini daha da artıra bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədində bildirilib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına və qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq əhalinin sosial rifahının, real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması üçün təkcə son iki ildə minimum əməkhaqqı, minimum pensiya, 16 sosial müavinətlər və dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqları artırılıb.Vətəndaşların rifahının təmin olunması, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə minimum əməkhaqqı və sosial ödənişlərin artımına görə dövlət büdcəsindən 2022-ci ildə 1528,0 milyon manat, 2023-cü ildə isə 836,3 milyon manat məbləğində əlavə vəsait ayrılıb.

Mərkəzi Bankın inflyasiyanın azaldılması istiqamətində öz səlahiyyətləri çərçivəsində həyata keçirdiyi tədbirlər və hökumətin antiinflyasiya tədbirləri, eləcə də dünya üzrə əmtəə, xüsusilə də ərzaq qiymətlərinin nisbətən aşağı düşməsi, başlıca ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın azalması və digər qlobal trendlər nəticəsində Azərbaycanda cari ilin yanvar-iyul ayları ərzində inflyasiya səviyyəsində səngimə müşahidə edilmiş və ilin əvvəlinə nəzərən 1,7 faiz-bənd, keçən ilin müvafiq dövrü ilə müqayisədə isə 0,8 faiz-bənd aşağı olub.

Ölkədə inflyasiyanın azalmasına baxmayaraq, xarici mühitin yüksək volatilliyi (dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda qalması gözləntiləri, iqlim dəyişmələri səbəbindən temperaturun artması və digər mənfi xarici şoklar) qiymətlərin əlavə artımına səbəb ola bilər.

Digər tərəfdən də nəzərə almaq lazımdır ki, yüksək inflyasiya şəraitində büdcə xərclərinin irihəcmli artımları inflyasiya təzyiqlərini daha da artıra və növbəti illərdə inflyasiya spiralının yaranmasına səbəb ola bilər.

# Gələn il pensiya və maaşlar nə qədər artırılacaq?

***"Maliyyə Naziryliyi 2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama yayıb. İlkin proqnozlara əsasən, gələn il dövlət büdcəsinin gəlirləri 33 milyard 765 milyon, xərcləri isə 36 milyard 355 milyon manat olacaq".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, gələn ilin dövlət büdcəsindən sosial müdafiə və sosial təminat üzrə xərclərdə artımın nəzərdə tutulması 2024-cü ildə sosial təminatın daha da güclənəcəyindən xəbər verir: "Belə ki, gələn il birbaşa sosial müdafiə və sosial təminat xərcləri 5 faiz artırılaraq 4 milyard 542 milyon manata çatdırılacaq. Qeyd edək ki, bu rəqəm birbaşa sosial xərclərdir. Bütövlükdə sosial istiqamətli xərclər 36 milyard 355 milyon manatlıq büdcə xərclərinin 45 faizindən çoxunu təşkil edəcək. Sosial istiqamətdə daha çox vəsaitlərin nəzərdə tutulması gələn il sosial proqramlara ayrılan vəsaitin artırılacağından xəbər verir. Növbəti yanvardan etibarən bütün növ əmək pensiyaları indeksasiya olunaraq artırılacaq. Digər sosial istiqamətlərdə də təminatın güclənəcəyi gözlənilir".

Həmçinin, 2024-cü ildə Azərbaycanda müdafiə və təhlükəsizlik xərclərinin 6 421 milyon manat olması nəzərdə tutulur ki,bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 6% çoxdur.

# Elman Rüstəmov "sığorta biznesi"ni gücləndirir

## Keçmiş baş bankir ölkənin ilk sığorta şirkətlərindən birinin tam sahibinə çevrilir?

***"Bakı Sığorta" ASC-nin səhmdarlarının pay bölgüsü dəyişib. Sığorta şirkətindən əldə edilən məlumata görə, "Bank Respublika"nın sığorta şirkətindəki payı 51,29%-dən 79,42%-ə qədər artıb. Başqa sözlə, bankın səhmlərinin sayı 6024-dən 9327-yə yüksəlib (valyuta.az).***

"Bank Respublika" sığorta şirkətində "Diamond Motors" MMC-nin 1,52%-lik (179 səhm), "Yeni Motors" MMC-nin 6,83%-lik (803 səhm), "Toyota Abşeron Center" MMC-nin 19,76%-lik payını (2321 səhm) əldə edib. Digər səhmdarlar Nəcəfov Behbud Çingiz oğlunun (814 səhm) və Rəhimov Murad Arif oğlunun (818 səhm) "Bakı Sığorta"dakı payı dəyişməyib.



Xatırladaq ki, "Bakı Sığorta" 1994-cü ildə "Tural Sığorta" adı ilə yaradılıb, 2007-ci ildə rebrendinq edib. Onun nizamnamə kapitalı 8,925 milyon manatdır .

Bildirək ki, yerli media "Bank Respublika"nın Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin keçmiş sədri Elman Rüstəmova məxsus olduğunu yazır. Belə ki, uzun illər boyunca həmin banka Xədicə Həsənova rəhbərlik edib. Mətbuatın yazdığına görə, o, E. Rüstəmovun ən yaxın və sədaqətli kadrlarından biri olub.

Yerli KİV həmçinin bir müddət əvvəl onu da bildirirdi ki, "Bank Respublika"da ən böyük paya malik olan Quliyevlər ailəsi Elman Rüstəmovun yerliləri (bəzi məlumatlara görə qohumudurlar-red.) olmaqla yanaşı, biznesini etibar etdiyi adamlar kimi tanınıb. İddia edilirdi ki, "Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyev qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər . Bura Rüstəmova aid bəzi maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair aiddir. Məsələn, Rüstəmova məxsus olduğu deyilən "Səba Broyler" şirkətinin rəhbəri Namiq Quliyev "Bank Respublika"nın prezidenti Natiq Quliyevin qardaşıdır.

Bundan əlavə , "Planet" şadlıq sarayının, "Subaru", "Bakı İnvest Holdinq"in, "Bakı Sığorta", "Honda", "Mitsubishi", "Bakı taksi"nin Rüstəmovun biznes şəbəkəsinə daxil olması, Quliyev qardaşları tərəfindən idarə olunmasına dair məlumatlar yayılıb. Son illər isə Quliyev qardaşlarının Elman Rüstəmovun inamını sarsıdacaq əməllərə yol verməsi ilə bağlı müxtəlif məlumatlar yayılıb. Hətta 2017-ci ildə qardaşlardan birinin - Elçin Quliyevin "Bank Respublika" ASC-nin birbaşa rəhbərliyindən kənarlaşdırılması da bununla bağlanmışdı.

Yerli KİV-in zaman-zaman gündəmə gətirdiyi bu iddialara nə sabiq baş bankir, nə də onun biznesinin idarəçisi olan Quliyev qardaşları aydınlıq gətirməyib. Sadəcə bir dəfə "Bank Respublika"nın prezidenti Natiq Quliyev müsahibəsində bu bankın Elman Rüstəmova bağlılığını inkar eləmişdi. O bildirmişdi ki, Mərkəzi Bankın sabiq rəhbərinə böyük hörmət bəsləyir, lakin bu, keçmiş baş bankirin "Bank Respublika"nın qeyri-rəsmi sahibi olduğunu söyləməyə əsas vermir.

Ancaq bəhs etdiyimiz müsahibədən sonra da ölkə mediası adıçəkilən bankın Elman Rüstəmovun biznes şəbəkəsinə daxil olduğunu yazmaqda davam etdi. İndi "Bank Respublikanın" "Bakı Sığorta"da payını kəskin artırması AMB-nin sabiq rəhbərinin sığorta bazarındakı mövqelərini gücləndirməsi kimi qiymətləndirilə bilər.

Xatırladaq ki, 2021-ci ildə Mərkəzi Bankın sədr postunu tərk etdikdən bir müddət sonra - 2022-ci ilin aprelində Elman Rüstəmov baş nazirin müşaviri vəzifəsinə təyin olunub və hazırda da həmin vəzifəni tutur.

Qeyd edək ki, Rüstəmovun baş bankir postunu tutduğu dövrdə banklar arasında ayrı-seçkiliyə yol verdiyi, ələlxüsus da onun adı ilə hallanan banka ayrıca "diqqət və qayğı" göstərdiyinə dair iddialar gündəmə gəlirdi. Hətta bir neçə ay öncə «Günay Bank"ın rəhbəri Mahmud Məmmədov mətbuata müsahibəsində Elman Rüstəmovdan narazılığını bildirmişdi. O vaxtilə Rüstəmovun «Günay Bank"ın fəaliyyətinə mane olduğunu açıqlamış, onun banklar arasında ayrı-seçkilik etdiyini vurğulamışdı. Sitat: "Bilmirəm ona nə etmişdim, amma hərtərəfli mane olurdu, bizə çox qısqanclıqla yanaşırdı".

Yeri gəlmişkən, Azərbaycanda 2015-ci ilin fevral və dekabr aylarında baş verən devalvasiyadan sonra bir çox banklar çətin duruma düşdüyü, bəzilərinin isə çox keçmədən bağlandığı halda "Bank Respublika"nın həmin böhranlı situasiyadan güclənərək çıxmasını da ölkə mediası məhz Elman müəllimin o vaxtkı xüsusi "diqqət və qayğısının" nəticəsi ilə əlaqələndirmişdi...

***Sənan Mirzə***

# Tarixi "Yevlax görüşü"nün nəticələri: Qarabağın erməni sakinlərinin reinteqrasiyasına start verildi

***Xəbər verildiyi kimi, sentyabrın 21-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti ilə Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycanın mərkəzi hakimiyyətini görüşdə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov təmsil ediblər. Qarabağın erməni sakinlərini isə Sergey Martirosyan və David Melkumyan təmsil ediblər. Rusiya sülhməramlı kontingentinin nümayəndəsi iştirakçı kimi görüşə qatılıb.

Görüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır. Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

Azərbaycan prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Sky News Arabia" telekanalına müsahibəsində deyib ki, Qarabağ erməniləri ilə Azərbaycan arasında bütün problemlərin bir görüşdə həllini gözləmək çətindir. Əmirbəyov bildirib ki, ermənilərlə müzakirələr onillərlə davam edən münaqişəyə son qoyan sülh sazişinə gətirib çıxara bilər. "Hesab edirəm ki, Yevlaxda bugünkü danışıqlar çoxlu görüşlərdən birincisidir. Gözləmək lazım deyil ki, Qarabağ erməniləri ilə Azərbaycan arasında bütün problemlər bir görüşdə həll olunacaq. Qarabağdakı ermənilərin sonrakı taleyi Azərbaycanın daxili işidir".

Nümayəndə onu da qeyd edib ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinin layihəsi beş əsas bənddən ibarətdir. "Azərbaycan və Ermənistan arasında sülh sazişinin layihəsi beynəlxalq hüquqla müəyyən edilmiş beş əsas bənddən ibarətdir. Bu sənədin ən mühüm məqamlarından biri iki ölkə arasında qarşılıqlı hörmətdir, hər iki tərəf bu prinsipə sadiqliyini təsdiqləyib", - Elçin Əmirbəyov bildirib. O nəzərə çatdırıb ki, saziş layihəsi dövlətlər arasında sərhədlərə hörmətlə yanaşı, iki ölkənin suverenliyi və ərazi bütövlüyünün tanınmasını, həmçinin tərəflərin bir-birinin daxili işlərinə qarışmamasını bəyan edir.

**Milli Məclisin üzvü Fazil Mustafa** görüşlə bağlı "Unikal"a açıqlamasında bildirib ki, görüşdə ilk növbədə Azərbaycanın tələbləri müzakirə olunub. Onun sözlərinə görə, gəldilər, etiraf etdilər ki, təslim olurlar: "Tələblərimiz onlara təqdim olunub. Gedib onları müzakirə edib cavab verəcəklər. Cavab verməsələr, antiterror əməliyyatı bərpa olunacaq. Sanki görüşdən bir nəticə çıxmalı idi. Ermənilər siyahı, mina xəritəsi verməli idilər. Belə bir şey yoxdur. Əsas odur ki, tələbimizi qoymuşuq, bununla razılaşdılar, nümyəndələrini göndərdilər və müzakirə başladı. Biz mövqelərimizi möhkəmlətmişik. Əsas lazım olan yerə gedib çıxmışıq. Nəticəni də görüşdən çox sahədə ortaya qoymuşuq. O baxımdan bu bir günlük proses deyil. Bu məsələdə nəticə olacaq və hər hansı problem qalmayacaq", - deyə deputat vurğulayıb.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə hesab edir ki, mövcud vəziyyətdən öz məqsədi üçün yararlanmaq Azərbaycan hakimiyyətinin ali strategiyası idi. 44 günlük savaşda necə məharətlə yararlandısa, Laçın keçid məntəqəsini necə qurdusa, bu gün də hər şeyi görə-görə, bilə-bilə professionallıqla hədəflərə doğru irəlilədi: "Erməni əsilli vətəndaşlara kimsə "status ver" deməyə Azərbaycanı məcbur edə bilməz, çünki özləri reinteqrasiya üçün masaya otururlar. Onları masadan qaldırmaq savaşa və konfliktə dəstəkdir. Rusiya xaric, (bu barədə əlavə) Qərb bu təşəbbüsdə bulunmayacaq, əksinə bu prosesi dəstəkləyəcək. Son hadisələrə kimi Peskov, Lavrov və s. dili ilə "sülhməramlıların sayı artırılmalıdır" tezisini irəli sürən Rusiyanın təklifi əhəmiyyətini itirdi. Çünki sahə daraldı, münaqişə üçün əsas olan qeyri-qanuni silahlı dəstə tərksilah qərarı verdi, döyüşəcək tərəflər yoxdur. Azərbaycan öz ərazisində qeyri-qanuni silahlı dəstənin son qalıqlarını darmadağın etdi, qalanlar isə həm hərbi texnikanı təhvil verməyi, həm də hərbi mundiri çıxarmağı öhdəlik kimi üzərinə götürdü. Paşinyan hökümətinin bu tədbirlərdə müdaxilə etməməsi bir daha Qərb dünyasına problemin Azərbaycanın daxili işi olması mesajını verdi. "Böyük qayıdış" planına əsasən geri dönən məcburi köçkünlərimizin təhlükəsizliyinin təmin olunacağına əminlik artdı. Azərbaycanın bu problemin həllində nə qədər israrlı və reinteqrasiyada səmimiliyi sübut olundu".



Partiya sədri onu da vurğulayıb ki, Cənubi Qafqaz yeni dövrün başlanğıcındadır: "Bir az peşəkarlıq və oyunçu məharəti bizi - Azərbaycanı yeni bəlalardan qurtararaq, fərqli müstəviyə daşıyacaq. Növbəti mərhələ Türkiyə-Ermənistan münasibətlərinin qurulması, Cənubi Qafqazda Rusiyanın dominantlığına son qoyulması, Zəngəzur dəhlizinin açılmasıdır. Uzaq perspektivdə isə Cənubi Qafqaz Birliyidir - Avropa Birliyi modelinə yaxın bir birlik. Həm də Rusiyasız. Biz ermənilərlə dost olmağa məcbur deyilik, amma qonşu olmaq qismətimizə yazılıb".

**Milli Məclisin deputatı Naqif Həmzəyev** söyləyib ki, hələ də tam arxayınlaşmaq olmaz: "Əslində, bu görüş bir neçə ay bundan əvvəl planlaşdırılırdı. Təəssüf ki, separatçı rejim erməniəsilli vətəndaşların bu görüşlərdə iştirakına mane yaradırdılar. Sentyabrın 19-da başlayıb, sentyabrın 20-də uğurla yekunlaşan lokal xarakterli antiterror tədbirlərinin nəticəsində ərazilərimizin tam suverenliyini təmin etdik. Azərbaycanın rəşadətli ordusu, qəhrəman əsgər və zabitlərimiz bu qələbəni bizə yaşatdılar. Yevlax görüşündə erməniəsilli əhaliyə hazırlanmış proqramın çatdırılması əsas məqsəd olub. Onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası birlikdə müzakirə edilib, onlara bütün mümkün variantlar izah edilib. Bundan sonra onların da səmimi olacağı təqdirdə Qarabağın digər bölgələrində həyata keçirilən quruculuq-abadlıq işlərinin və digər proseslərin də burada həyata keçiriləcəyi nəzərə çatdırılıb. Azərbaycana qarşı vuruşan separatçıların tərk-silah edilməsi, silahların Azərbaycana təhvil verilməsi, buradakı erməniəsilli vətəndaşların siyahıya alınması, onların yenidən Azərbaycan vətəndaşlığını qəbul edib, qanunlarımıza uyğun olaraq yaşamaları, ərazidə Azərbaycan dövlət strukturlarının fəaliyyətlərinin təşkil edilməsi kimi məsələlərin mərhələli şəkildə həyata keçirilməsi üçün müzakirələr aparılıb".

Deputat vurğulayıb ki, bu cür görüşlər hələ davam edəcək: "Erməni xunta rejimi tərk-silah edilib. Lakin biz tam arxayınlaşmamalıyıq. Separatçılar təslim olsalar da, silahı yerə qoymayan, gizlənən ermənilər var. Bunların da təmizlənməsi müəyyən vaxt alacaq. Çox həssas dövrə qədəm qoyuruq. Ermənilərin terror və təxribat törətmələri üçün vasitələri əllərindən alınıb, Azərbaycan Ordusuna veriləcək. 1991-ci ilə qədər burada yaşamış ermənilər mövcudluqlarını davam etdirə biləcək. Biz istəklərimizi mərhələli şəkildə həyata keçirəcəyik".

**Politoloq Elxan Şahinoğlu** fikirlərini bizimlə bölü.ərkən deyib ki, erməni radikallar və onlara dəstək verən xarici mərkəzlər Yevlaxda razılaşmanın əldə edilməsini və onun yerinə yetirilməsini əngəlləməyə çalışacaqlar: "Qarabağda atəş səslərinin hələ də eşidilməsi və Rusiya hərbi kontingentinə açılan atəş də buna xidmət edir. Məqsədləri vaxt qazanmaqdır ki, bu müddətdə Azərbaycana beynəlxalq təzyiq artsın, BMT və digər strukturlar Azərbaycana qarşı müzakirələrə başlasınlar. Çünki ağ bayraq qaldırdıqdan sonra kapitulyasiya erməni radikallarla, onlara dəstək verən mərkəzlərin Azərbaycana qarşı təzyiq planlarını pozacaq. Xarici mərkəzlər dedikdə yalnız Qərbdəki darieləri nəzərdə tutmuram, işin içində Rusiyadakı şovinist mərkəzlər də var, hansılar ki, uzun onilliklər separatizm vasitəsilə ərazi bütövlüyünün bərpası məsələsində müxtəlif dövlətlərə, o cümlədən Azərbaycana təzyiq ediblər, mane olublar. Bu baxımdan tələsməliyik, separatçılara "bunu sonraki mərhələdə müzakirə edərik" kimi şanslar verməməliyik, ordumuzun ildırımsürətli əməliyyatı kimi diplomatiyamız da separatizmi bitirmək üçün sürəti artırmalıdır".

***M. İbrahimli***

## Ərdoğan İlham Əliyevə zəng etdi - Antiterror tədbirləri müzakirə edildi



***Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Bildirilib ki, telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıblar.

Azərbaycan və Türkiyə prezidentləri qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək təmaslar və strateji müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

## Ceyhun Bayramov Baydenlə görüşdü



***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Prezidenti Co Baydenlə görüşüb.***

"Unikal" xəbər verir ki, Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində ABŞ Prezidenti Co Bayden tərəfindən təşkil edilən qəbulda iştirak edib.

## Kəlbəcərdə sursat anbarı aşkar olundu



***Kəlbəcər rayonunun Qozluкörpü yaşayış məntəqəsi ərazisində sursat anbarı aşkar olunub.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yaşayış məntəqəsi ərazisində yerləşən fermanın tikililəri uzun müddət sursat anbarı məqsədi ilə istifadə edilib. Burada raket, artilleriya mərmiləri, minalar və müxtəlif çaplı döyüş sursatları mövcud olub.

Qeyd olunan sursatların təcili tibbi yardım maşını ilə fermanın ərazisinə daşındığı da müəyyən edilib.

# İlham Əliyev və Putin arasında telefon danışığı olub

***Sentyabrın 21-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Vladimir Putin arasında telefon danışığı olub.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev sentyabrın 20-də Qarabağda Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçularının faciəli şəkildə həlak olması ilə bağlı üzrxahlıq ifadə edib və dərin hüznlə başsağlığı verib.

Baş verənlərlə bağlı hərtərəfli araşdırma aparılacağı və bütün təqsirkarların layiqli cəzalarını alacağı vurğulanıb. Bununla bağlı hər iki ölkənin baş prokurorluqları sıx əlaqədədir. Azərbaycan Prezidenti, həmçinin həlak olanların ailələrinə maddi yardım göstərilməsinə hazır olduğunu bildirib.

Tərəflər Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Rusiya sülhməramlı kontingentinin köməyi ilə əldə edilmiş razılaşmaların ardıcıl həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Bu kontekstdə sentyabrın 21-də Yevlax şəhərində Rusiya sülhməramlı kontingentinin iştirakı ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri və Qarabağın erməni əhalisi arasında başlayan təmaslara böyük əhəmiyyət verilir.

Regionda vəziyyətin daha da sabitləşdirilməsi və humanitar problemlərin aradan qaldırılması üzrə prioritet addımlar müzakirə edilib. Vladimir Putin Qarabağın erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə bu məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazır olduğu təsdiqlənib.

2020-2022-ci illərdə yüksək səviyyədə əldə edilmiş məlum üçtərəfli razılaşmaların fonunda aparılan danışıqlar prosesində, ilk növbədə, nəqliyyat əlaqələrinin açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması üzrə işlərin fəallaşdırılması razılaşdırılıb.

# Baş nazir İqtisadi Şuranın iclasını keçirdi

***İqtisadi Şuranın vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklərə həsr olunmuş iclası keçirilib.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib. İclasın gündəliyində 2024-cü ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış vergi və gömrük sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi, onun nəticələrinə əsasən vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər, eləcə də Vergi Məcəlləsinə edilən dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi üzrə dəyişiklikləri əhatə edən istiqamətlər və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib.



İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Qarabağ bölgəsində minalar zərərsizləşdirilir

***Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətlər icra edilir.***



Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər rayonunun Çərəktar kəndinin cənubunda Vətən müharibəsindən sonra müdafiə xətti quraraq bu istiqamətdə xeyli sayda mina basdırıb. Sentyabrın 21-də qeyd olunan istiqamətdə Ermənistanda istehsal edilmiş xeyli sayda piyada və tank əleyhinə mina təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri ərazilərimizin minalardan təmizlənməsi üzrə fəaliyyətlərini davam etdirir.

## 304 nəfər partiyadan xaric olundu - YAP-dan açıqlama

***304 nəfər partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə Yeni Azərbaycan Partiyasından (YAP) sıralarından xaric olunub.***

"Unikal" xəbər verir ki, bu barədəYAP İdarə Heyətinin iclasında qərar qəbul edilib.

İdarə Heyətinin iclasında Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı partiyanın rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb.

İdarə Heyətinin üzvü Elnarə Akimova çıxış edərək məsələyə münasibət bildirib.

304 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub.



## Paşinyan Təhlükəsizlik Şurasının növbədənkənar iclasını çağırdı

***Ermənistanın baş naziri Nikol Paşinyanın rəhbərliyi ilə Ermənistan Təhlükəsizlik Şurasının növbədənkənar iclası keçirilib.***

"Unikal" xəbər verir ki, baş nazir aparatının mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Qarabağ ətrafındakı vəziyyət və gələcək addımlar müzakirə olunub.

İclasda Təhlükəsizlik Şurasının üzvləri ilə yanaşı, respublika prezidenti Vaaqn Xaçaturyan, Parlamentin sədri Alen Simonyan, baş nazir aparatının rəhbəri Arayik Arutyunyan və digər rəsmi şəxslər də iştirak ediblər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Qarabağın erməni sakinləri Bakıdan yardım istədi: Yeni proses başlayır

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb.***



Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb. Konstruktuv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb.

Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib.

Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb.

Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər.

Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır.

Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

Qeyd edək ki, Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri separatçıların təslim olması ilə nəticələnmişdi. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş təyin edilmişdi.

***İnformasiya şöbəsi***



## Spiker konfrans iştirakçılarını antiterror tədbirləri barədə məlumatlandırdı

***Asiya qitəsində həmrəylik, əməkdaşlıq və parlament diplomatiyasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikasının 2024-2025-ci illər üçün Asiya Parlament Assambleyasının sədrliyinə namizədliyini rəsmən irəli sürüb.***

"Unikal" xəbər verir ki, bunu Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasının açılış mərasimində çıxışı zamanı Milli Məclisin sədri Sahibə Qafarova deyib.

Azərbaycan parlamentinin spikeri, ölkəmizin bu təşkilata sədr seçiləcəyi təqdirdə, APA-nın institusional strukturunun təkmilləşdirilməsi və digər parlamentlərarası qurumlarla əməkdaşlığının genişləndirilməsi məsələlərinə xüsusi önəm verəcəyini qeyd edib, iştirakçı ölkələrin bu sahədə ölkəmizə dəstək olacaqlarına ümidvar olduğunu bildirib.

Sahibə Qafarova çıxışında həmçinin Azərbaycan Milli Məclisinin parlament diplomatiyası vasitəsilə Asiya dövlətlərinin parlamentləri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verdiyini, qanunverici orqanımızın bu istiqamətdə xeyli səy göstərdiyini də diqqətə çatdırıb.

## "Hazırda Xankəndinin başı üzərindən prosesləri izləyirik" - Hərbi ekspert

***"Niyə Xankəndiyə daxil olmuruq sualına çox rast gəlirəm. Hazırda ərazilərimizdən erməni silahlıları tam çıxarılmayıb, onlara məxsus silahlar, zirehli vasitələr və artilleriya qurğuları bizə tam təhvil verilməyib".***

"Unikal" xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib. O bildirib ki, bu prosesdən əvvəl əraziyə daxil olmaq əsassız itkilərə səbəb ola bilər: "Rusiya kontingenti Ağdam, Kəlbəcər və Laçında olduğu kimi erməni silahlılarını ərazidən çıxaracaq, həm də silahları və texnikaları yığıb bizə təhvil verəcək. Bundan sonra əraziyə girmək daha təhlükəsiz olacaq. Hazırda Xankəndinin başı üzərindən prosesləri izləyirik. Bu günə qədər şeytan yuvası olan Xankəndi üzərində bayrağımızı hər an dalğalandıra bilərik. Amma bunu itkisiz etməliyik və mütləq yaxın zamanda edəcəyik. Kimsənin şübhəsi olmasın", - deyə ekspert vurğulayıb.

## "Qarabağın əsas mülkiyyət məsələsi həll olundu" - Peskov

***"Qarabağın əsas mülkiyyət məsələsi həll olundu".***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərin suallarını cavablandırarkən deyib.

Mətbuat katibi vurğulayıb ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üçün bütün ilkin şərtlər var: "Qarabağda nəqliyyat dəhlizlərinin açılması işləri ilə bağlı hələlik konkret məlumat yoxdur".

O, həmçinin bildirib ki, Qarabağda rus sülhməramlılarının ölümü ilə bağlı araşdırma aparılır.

***Ağarza Elçinoğlu***

# Rəsmi Bakı Fransa XİN başçısına cavab verdi

***Fransanın Avropa və xarici işlər naziri Katrin Kolona tərəfindən səsləndirilən olduqca məsuliyyətsiz açıqlamalar bölgədə mövcud reallıqların təhrif edilməsinə yönəlib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Fransanın Avropa və xarici işlər nazirinin Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinə qarşı görülən antiterror tədbirlərinin nəticələri ilə bağlı fikirlərinə dair şərhində bildirilib. "Qeyri-qanuni erməni silahlı qüvvələrinin mümkün hərbi təxribatlarının və terror aktlarının qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələri tərəfindən öz suveren ərazilərimizdə həyata keçirilən yerli antiterror tədbirləri, beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə reallaşdırılıb. Fransanın Ermənistan rəhbərliyi tərəfindən erməni silahlı qüvvələrinin ərazilərimizdən geri çəkilməsi üzrə öhdəliklərinin yerinə yetirilməməsini, hərbi-siyasi təxribatların törədilməsini, o cümlədən Ermənistan Baş nazirinin son 30 ildə bu ölkə tərəfindən dəstəklənən qondarma rejimə 2 sentyabr tarixində ünvanladığı məsuliyyətsiz təbrik mesajını qınamaq əvəzinə, Azərbaycan əleyhinə səsləndirdiyi fikirləri separatizm və Ermənistan daxilindəki revanşist qüvvələrin təşviqdən başqa bir şey deyil.

Fransanın BMT Təhlükəsizlik Şurasının öncəki iclaslarında Azərbaycanı təkləmək cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, bu ölkənin növbəti dəfə Təhlükəsizlik Şurasından bölgəni məhdud şəkildə anlayan siyasəti və mövcud həqiqətlərin danılması üçün istifadə etmək cəhdi təhlükəli olmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinə xidmət etmir. Azərbaycan heç vaxt dinc erməni sakinləri hədəf almayıb, erməni əsilli sakinlərin cəmiyyətimizə reinteqrasiyası prosesini həyata keçirməyə və Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində onların hüquq və təhlükəsizliyinin təmin edilməsinə sadiqdir. Bu xüsusda, Fransanın erməni sakinlərin mövcud olmayan "kütləvi deportasiyası" ilə bağlı iddiası yalnız bu ölkənin Azərbaycana qarşı növbəti ittihamları səsləndirməsi üçün mövcudluğuna ümid bəslədiyi bir düşüncədir.




Bütün qeyri-qanuni silahlı birləşmələrin qısa zaman ərzində tam tərksilah edilməsi və çıxarılması, habelə qanunsuz qondarma rejiminin buraxılması, mərkəzi hökumət nümayəndələri ilə yerli erməni sakinlər arasında onların Azərbaycanın Konstitusiyası çərçivəsində bərabərhüquqlu vətəndaşlar kimi cəmiyyətimizə reinteqrasiyası ilə bağlı məzmunlu dialoq üçün şəraitin yaradılmasının açarıdır. Bunun da öz növbəsində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesinə də müsbət töhfə verəcəyini hesab edirik.Erməni sakinlər ilə Azərbaycan rəsmiləri arasında birbaşa dialoqun, bölgədə tərksilah və demilitarizasiyanın praktiki baxımdan icrasına başlanılması ilə müşayiət olduğu bir vaxtda beynəlxalq ictimaiyyət, xüsusilə Fransa tərəfindən vəziyyətin dəyərləndirilməsi dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq hüquq normalarına uyğun olmalıdır", - məlumatda qeyd olunub.



## Prezidentin köməkçisi sülh müqaviləsindən danışdı

***"Biz sülh gündəmini dəstəkləyirik və hesab edirik ki, iki ölkə arasında sülh müqaviləsinin tez bir zamanda yekunlaşdırılması region üçün daha yaxşıdır".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev "Euronews"a müsahibəsində deyib.

O, ilk olaraq antiterror tədbirinin mahiyyətindən söz açıb və bunun məhdud xarakter daşıdığını vurğulayıb: "Nəticədə hərbi infrastruktur böyük ölçüdə zərərsizləşdirilib. Bu gün biz qısamüddətli antiterror tədbirinin dayandırıldığını deməkdən şadıq. Onlar öz silahlı qüvvələrini ərazidə tərksilah edirlər. Azərbaycan öz niyyətini çox açıq şəkildə bildirdi ki, əgər onlar hərbi birləşmələri tərksilah etsələr və ya tərksilah etmək qərarına gəlsələr, Azərbaycan bu antiterror tədbirini dayandırmağa və Yevlağa və Azərbaycanın bəzi digər şəhərlərinə dəvət etdiyimiz Qarabağ ermənilərinin sakinlərinin nümayəndələri ilə dərhal təmaslara başlamağa hazırdır. Dünən isə Azərbaycan Prezident Administrasiyası bir daha bəyanatı ilə çıxış etdi və bizim onları reinteqrasiyaya dəvət etdiyimizi təkrarladı".

H.Hacıyev vurğulayıb ki, Azərbaycan da Qafqazın inteqrasiya olunmuş region konsepsiyasını dəstəkləyir: "Bu proses çərçivəsində qonşu dövlətlər də mehriban qonşuluq münasibətlərinə can atmalıdır".

## "Tezliklə Xankəndidə Azərbaycan bayrağı dalğalanacaq" - Deputat

***"Bu gün Qarabağ üçün tarixi günlərdən biridir. Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə görüş keçirilib. Bu, reinteqrasiyanın başlanğıcıdır".***



"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, açılan yeni səhifə yalnız Qarabağ üçün deyil, bütövlükdə Qafqaz üçün sülh və sabitlik gətirə bilər: "44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü bərpa edən Azərbaycan 24 saatlıq antiterror əməliyyatlarından sonra Qarabağda suveren hüquqlarını tam formalaşdırır. Bu artıq yeni mərhələ, yeni çağırışlardır. Regiondakı yeni düzən Azərbaycanın geosiyasi mövqeyini daha gücləndirməkdədir".

Deputat Razi Nurullayev qeyd edib ki, Qarabağda olan etnik erməni separatçılar ram edilib. Onun sözlərinə görə, həyata keçirilən antiterror tədbirləri nəticəsində erməni separatçılar ağ bayraq qaldırıb təslim oldular:

"Bu gün də Azərbaycan cəmiyyətinə reinteqrasiyanı müzakirə etmək üçün Yevlax şəhərinə gəldilər. Cəmi bir sutka ərzində Azərbaycan Ordusu Prezident İlham Əliyevin başçılığı altında düşməni diz çökdürdü və demək olar ki, separatizmin kökünü birdəfəlik kəsdi. Tezliklə Xankəndidə Azərbaycan bayrağının dalğalanmasının da şahidi olacağıq".

# "Dünya gördü ki, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi təmin olunur"

### Siyavuş Novruzov: "İnsanlar Zəngilana, Laçına, Füzuliyə -öz yurdlarına qayıdıblar. Gələcəkdə Xankəndiyə, Xocalıya və digər ərazilərimizə də bizim vətəndaşlarımız qayıdacaq"



***Milli Məclisin komitə sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, lokal xarakterli antiterror tədbirlərinin əhəmiyyətindən, bu tədbirlər zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinin hərbi hədəfləri mülki obyektlərin yaxınlığında yerləşdirməsinin məqsədindən, antiterror əməliyyatının regiona necə təsir edəcəyindən və Ermənistanda keçirilən aksiyalardan danışıb.***

***-Siyavuş müəllim, Azərbaycanın sülh çağırışına baxmayaraq, Ermənistan dövləti, separatçı rejim öz xislətinə uyğun olaraq bundan yayınmaq üçün müxtəlif bəhanələr gətirdi. Eyni zamanda, azərbaycanlılara, orada yaşayan dinc sakinlərə qarşı mütəmadi olaraq terror aktları həyata keçirmələri antiterror tədbirlərini zəruri etdi. Bir sutkalıq antiterror tədbirindən sonra Qarabağdakı erməni separatçıları ağ bayraq qaldırıb təslim oldular. Bu tədbirlərin əhəmiyyətini necə qiymətləndirirsiz?***

-Lokal xarakterli antiterror əməliyyatı ilk növbədə Azərbaycan Ordusunun professionallığını göstərdi. Belə ki, 44 günlük Vətən müharibəsindən sonra Ordumuz texniki, təlim, ruh yüksəkliyi və s. baxımından daha da gücləndi. Dəfələrlə bildirilib ki, 2020-ci ildə qəbul olunmuş Üçtərəfli Bəyanatın 4-cü bəndində əsasən, erməni silahlı dəstələri Azərbaycan ərazisindən çıxarılmalı və tərksilah olunmalı idi. Amma Ermənistan buna əhəmiyyət vermirdi və mütəmadi olaraq həmin ərazilərə silah daşıyırdılar. Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə bildirdi ki, bunun qarşısı alınmalıdır. Həmçinin, müxtəlif yerlərdən gələrək orada təlim keçirdilər. Başqa ölkələrdən gələn hərbçilər onlara minaların quraşdırılması, həmçinin, terror aktlarının həyata keçirilməsi ilə bağlı təlim keçirdilər. Sülh yaratmaq, sülh danışıqlarına getmək əvəzinə belə yollara əl atırdılar. Arada Vardanyan adlı dələduz tapıb gətirib nazir təyin etdilər. Bütün baş verənlər ancaq antiterror tədbirlərinin həyata keçirilməsinə gətirib çıxarırdı. Son dəfə yenə xəbərdarlıq edildi. Amma qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənddə yerləşdirilən minanın partladılması ilə törədilən terror aktı nəticəsində 2 mülki, 4 polis əməkdaşımız həlak oldu. Bununla yanaşı, Ağdam, Kəlbəcər, Şuşa və başqa ərazilərə də mütəmadi olaraq atəş açırdılar. Məcbur etdilər ki, antiterror əməliyyatı keçirilsin. Bu addımlar da onu göstərdi ki, 1 sutka ərzində Qarabağ ərazisində olan Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri diz çökdülər və Azərbaycanın dediyinə gəldilər.

***-Müdafiə Nazirliyinin antiterror tədbirlərindən yaydığı videoların bir neçəsində erməni silahlı dəstələrinin hərbi hədəfləri mülki ərazilərdə yerləşdirdiyi açıq görünürdü. Həmçinin, Qarabağ bölgəsindəki dinc əhalini məcburi qaydada silahlandıraraq döyüş mövqelərinə cəlb etməyə çalışırdılar. Bu addımların məqsədi nə idi?***

-Birinci Qarabağ və 44 günlük Vətən müharibəsində də bu addımları atırdılar. Xəstəxanaların, digər mülki obyektlərin yaxınlığında raketlər yerləşdirirdilər. Şahidi olduq ki, ermənilər Yaxın Şərqdəki terroristlərin metodlarından istifadə edir, ağır texnikaları məktəblərin həyətində, əhalinin arasında gizlədirdilər ki, ora Azərbaycan Ordusu atəş açmasın. Amma özləri oradan atəş açırlar ki, onlara cavab zərbəsi endiriləndə dinc sakinlər həlak olsunlar və bütün dünyaya car çəksinlər ki, dinc sakinlər ölür. Bu, tipik erməni metodudur. Yenə də bu metoddan istifadə etməyə çalışdılar ki, bir neçə dinc sakin ölsün. Lakin mülki vətəndaşlar və heç bir mülki obyekt Silahlı Qüvvələrimiz tərəfindən hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər zərərsizləşdirildi. Ordumuz yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail oldular. Bir neçə görüntü təqdim olundu ki, erməni silahlı birləşmələrinin döyüş mövqelərində mülki avtomobillər və şəxslər olduğu üçün hərbçilərimiz oranı vurmayıb. Ermənilər əhalini maşınlara doldurub hərbi hədəflərin yanında saxlayırdılar. Mülki şəxslərin zərər çəkməsinin onlar üçün fərqi yoxdur.Onların yalnız öz şəxsi maraqları var və o da həyata keçməyəndə bu məsələ onlar üçün əhəmiyyət daşımır. Eyni zamanda, bölgədə yaşayan erməni sakinlərinə Ermənistan silahlı qüvvələrinin birləşmələrinə yaxın durmamaq və onlara dəstək olmamaq çağırışları edildi. Hərbi qulluqçularımız bu çağırışları çap edilmiş məlumat vərəqələrində müxtəlif vasitələrlə yerli əhaliyə çatdırırdı. Mülki əhali danışıqlar ərəfəsində görəcək ki, Azərbaycan onların bütün təminatını həll edir. Azərbaycan vətəndaşı hansı hüquqlara malikdirsə, bu, onlara da aiddir.

***-Sizcə, antiterror əməliyyatından sonra regiondakı proseslər hansı istiqamətdə cərəyan edəcək?***

-Biz bir daha öz gücümüzü göstərdik. Dünya da qəbul etməlidir ki, Azərbaycan öz ərazisində antiterror tədbirlərini həyata keçirib. Biz başqa dövlətin ərazisində deyil, öz ərazimizdə bunu etdik. Öz ərazisində antiterror əməliyyatının həyata keçirilməsi Azərbaycanın konstitusion hüququdur. Azərbaycan beynəlxalq hüquqa hörmət edir, ona düzgün yanaşır və onun tələblərinə uyğun addımlar ataraq vətəndaşlarının təhlükəsizliyini təmin edir. Məlum olduğu kimi, azad edilmiş ərazilərdə quruculuq-abadlıq işləri aparılır. Orada insanlar çalışır. Bununla yanaşı insanlar öz evlərinə qayıdırlar, fermer təsərrüfatları yaradırlar. Biz həmin şəxslərin təhlükəsizliyini təmin edə bilməsək, onların köçürülməsi hansı qanuna uyğun olacaq? Dövlət ilk növbədə insanların təhlükəsizliyini təmin etməlidir və bunu da etdi. Dünya da gördü ki, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi təmin olunur. İnsanlar Zəngilana, Laçına, Füzuliyə -öz yurdlarına qayıdıblar. Gələcəkdə Xankəndiyə, Xocalıya və digər ərazilərimizə də bizim vətəndaşlarımız qayıdacaq. Orada onların evləri olub, dövlət tikib verəcək. Bu proses bütün vətəndaşların dövlətin, Ali Baş Komandanın yanında olduğunu göstərdi. Qələbənin əldə olunmasında hər bir vətəndaşımızın dəstəyi, gücü öz rolunu oynadı.

***-Bildiyiniz kimi, bir neçə gündür Ermənistanda Nikol Paşinyanın əleyhinə aksiyalar keçirilir. Bu aksiyaların necə bitəcəyini düşünürsüz?***

-Aksiyalarda demək istəyirlər ki, Ermənistan niyə baş verən proseslərə dəstək vermir. Burada hansısa dəstəkdən söhbət gedə bilməz. Ona görə ki, dəstək veriləcəkdisə, çox ağır nəticələr olacaqdı. Ermənistan rəhbərliyi bunu başa düşürdü. Dəstək vermək istəsə belə, buna gücü çatmırdı. Digər bir tərəfdən onların bu potensialı yoxdur. 44 günlük Vətən müharibəsində Ermənistanın bütün hərbi potensialı darmadağın edilib. Guya bunlara Hindistandan və digər yerlərdən güzəştlə, işlənmiş silahlar pay verəcəklər. Bir neçə il lazımdır ki, Ermənistan hərbi sənayesini ortaya çıxarsın. Bundan başqa, Vətən müharibəsində ermənilərin 10 mindən çox fərarisi var idi. Onların özləri də dərk edirlər ki, heç bir potensialları yoxdur. Onlar Azərbaycanın müasir silahlarına, Ordumuza cavab verə bilməzlər. Bunu başa düşüb müdaxilə etmədilər. Yəqin ki, aksiyaya çıxanlar da bir neçə gündən sonra dağılışacaqlar.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbovun ləğv edilən "yeyinti yeri"nin gizlinləri...

## Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi niyə "arxivə göndərildi"?

***Yola salmaq üzrə olduğumuz həftə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv edildi. Bununla bağlı ölkə başçısı Fərman imzalayıb.***

Nazirlər Kabinetinə həmin Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Xatırladaq ki, Prezident 2011-ci il dekabrın 27-də körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə Sərəncam imzalamışdı. Sərəncama əsasən Təhsil Nazirliyinin tabeliyində olan körpələr evləri, körpələr evi-uşaq baxçaları, uşaq baxçaları, xüsusi uşaq bağçaları və uşaq evləri yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyinə verilmişdi.



Bunun ardınca ovaxtkı paytaxt meri Hacıbala Abutalıbov məktəbəqədər təhsil müəssisələri və uşaq evləri ilə bağlı qurum yaratmışdı. Lakin çox keçmədən həmin qurumun adı korrupsiyada hallanmağa başlamışdı. Bir müddət sonra isə Hesablama Palatasının adıçəkilən İdarədəki yoxlamaları bu iddiaların əsassız olmadığını ortaya qoymuşdu.

Məsələn, 2014-2016-cı ildə Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (İdarə) ayrılmış vəsaitlərin proqnozlaşdırılması və istifadəsi vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə hesabatından aydın olurdu ki:

- İdarə tərəfindən büdcə vəsaitlərinə tələbatın hazırlanması prosesində ayrı-ayrı məktəbəqədər təhsil müəssisələrindən və uşaq evlərindən büdcə vəsaitinə olan real tələbat barədə sifarişlər tələb edilməyib, əvvəlki illərdə nəzərdə tutulmuş vəsaitlərin icrası nəzərə alınmayıb.

- Bəzi xərclər üzrə tələbatdan artıq təkliflər təqdim edilib, bir sıra xərc istiqamətləri üzrə təklif olunan məbləğlər kifayət qədər əsaslandırılmayıb. Eyni zamanda Bakı şəhərinin müvafiq rayonları üzrə, həm də rayon daxili məktəbəqədər uşaq müəssisələri və uşaq evləri üzrə uşaq günlərinin düzgün müəyyənləşdirilməməsi nəticəsində 1 uşaq gününə düşən ərzaq xərci proqnozu və faktiki xərci əhəmiyyətli şəkildə fərqli olub.

- Müəssisələrin tələbatı, real faktiki xərci tam öyrənilmədiyindən məktəbəqədər uşaq müəssisələrinə artıq inventar, avadanlıq, eləcə də təsərrüfat malları alınıb. İdarə tərəfindən satın alınan malların ehtimal olunan qiymətlərinin düzgün müəyyənləşdirilməməsi, funksional fəaliyyətinə aid olmayan alışların həyata keçirilməsi, “Təhsil ocaqlarında, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi” barədə müvafiq qərarın tələblərinə bir sıra hallarda əməl edilməməsi, mərkəzləşdirilmiş qaydada verilən əsas vəsaitlərin uçota qəbul edilməməsi kimi nöqsanlara yol verilib.

- Auditlə əhatə olunan dövrdə sayğacların quraşdırılması, çəkilişi və təmiri ilə əlaqədar vəsait nəzərdə tutulduğu halda 10 məktəbəqədər uşaq müəssisəsində su sayğacları quraşdırılmayıb, nəticədə su xərclərinin ödənilməsi zamanı büdcə vəsaitlərinin səmərəsiz istifadəsinə şərait yaradılıb vəs .və i.a.

Bununla da Hacıbala Abutalıbovun yaratdığı İdarənin sabiq mer üçün yeni korrupsiya mənbəyinə çevrildiyi barədə medianın həmin vaxtadək yazdıqları dolayı yolla da olsa rəsmi təsdiqini tapdı.

Üstəlik, unutmayaq ki, ölkə mediasında paytaxtdakı körpələr evi-uşaq baxçaları, uşaq baxçaları, uşaq evləri kimi müəssisələrdə Hesablama Palatasının hesabatı ilə müqayisədə daha ciddi korrupsiya halları barədə bir-birindən tükürpədici materialların yayılması adi hala çevrilmişdi. Bütün bunları ümumiləşdirdikdə həmin müəssisələrin qeyri-qənaətbəxş fəaliyyəti Hacıbala müəllim üçün növbəti fiasko kimi qiymətləndirilə bilərdi.

Elə sonrakı illərdə Hesablama Palatasının Bakı şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsindəki yoxlamaları da bu qurumun tamamilə yarıtmaz fəaliyyət göstərdiyini ortaya qoydu. Məsələn, 2014-2016-cı illərdə Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (İdarə) ayrılmış vəsaitlərin proqnozlaşdırılması və istifadəsi vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələrindən aydın oldu ki:

- Bəzi xərclər üzrə tələbatdan artıq təkliflər təqdim edilib, bir sıra xərc istiqamətləri üzrə təklif olunan məbləğlər kifayət qədər əsaslandırılmayıb;

-uşaq müəssisələri və uşaq evləri üzrə uşaq günlərinin düzgün müəyyənləşdirilməməsi nəticəsində 1 uşaq gününə düşən ərzaq xərci proqnozu və faktiki xərci əhəmiyyətli şəkildə fərqli olub;

- müvafiq normativ-hüquqi aktların bəzi tələblərinə əməl edilməyərək bir sıra hallarda ümumi orta təhsilli və ya kurs qurtarmış şəxslər ali və orta ixtisas təhsili tələb olunan vəzifələrə təyin edilib və s.

Yaxud, 01.01.2019-cu il tarixindən 01.01.2020-ci il tarixinədək adıçəkilən İdarəyə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasına dair auditin nəticəsini açıqlanarkən həmin dövrü əhatə etməklə 2 milyon manata qədər büdcədən yayınma hallarının aşkarlandığı məlum oldu!

Bir sözlə, Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin ləğvini eyni zamanda Hacıbala Abutalıbovun yaratdığı və adı indiyədək daha çox korrupsiya ilə assosiasiya olunan bir qurumun ləğvi kimi anlamaq lazımdır. Bu idarə barədə istər rəsmi, istərsə də qeyri-rəsmi yeyinti faktları onun ”arxivə göndərilməsinin” sürpriz olmadığını söyləməyə əsas verir...

*Sənan Mirzə*



# Türkiyənin müdafiə naziri Zakir Həsənova zəng etdi

***Sentyabrın 21-də Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənova zəng edib.***

”Unikal” xəbər verir ki, Y.Güler antiterror tədbirlərinin uğurla başa çatması münasibətilə Azərbaycanın müdafiə nazirini təbrik edib, Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu qeyd edib. Türkiyə milli müdafiə naziri şəhid olan hərbi qulluqçularımıza rəhmət diləyib, onların ailələrinə dərin hüznlə başsağlığı verib və bütün yaralılara Allahdan şəfa diləyib.

General-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı qısa müddət ərzində bütün istiqamətlər üzrə əldə edilən hərbi uğurlardan danışıb. Müdafiə naziri antiterror tədbirləri zamanı hərbçilərimizin qəhrəmanlıq, şücaət və peşəkarlığının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Prezidentin saytına saniyədə 4 milyondan çox hücum olub - RƏSMİ

***Azərbaycan ərazisində antiterror tədbirlərinə başlayandan bəri bir sıra dövlət qurumlarının saytlarına kiberhücumlar olub.***

”Unikal” xəbər verir ki, bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) idarə rəisi Tural Məmmədov Beynəlxalq Kibertəhlükəsizlik Günləri Konfransında (İCSD 2023) bildirib.

”Təkcə Prezidentin rəsmi saytına saniyədə 4 milyondan çox DDoS (Denial-Of-Service Attack) hücum qeydə alınıb”, - T. Məmmədov qeyd edib.

Onun sözlərinə görə, XRİTDX-in mütəxəssisləri onların qarşısını alır: “Bu istiqamətdə fəaliyyətimizi gücləndirilimiş rejimdə davam etdiririk”.

Xatırladaq ki, Azərbaycanın sentyabrın 19-20-i tarixlərində keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri təslim olublar. Razılaşmaya əsasən, Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.




# Azərbaycan Türkiyədən antidron sistemləri aldı

***Azərbaycan Türkiyədən pilotsuz uçuş aparatları (PUA) ilə mübarizə aparmaq üçün yeni antidron sistemləri alıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Anadolu" informasiya agentliyi məlumat yayıb.

Məlumata görə, Azərbaycana tədarük edilən ILTER adlı sistemlər "Boğaziçi Savunma" şirkəti tərəfindən istehsal edilib. Sistemin effektivliyi həm ölkə daxilində, həm də ölkə xaricində sübut edilib. Bildirilir ki, antidron sistemi fırlanan və ya sabit qanadlı mini/mikro PUA-lara qarşı tam avtomatik rejimdə işləyir. Sistem aşkar edilə təhdidi aşkarlayır və sıradan çıxarır.

Mobil və stasionar vəziyyətdən işləyən ILTER 360 dərəcə hədəfləri aşkarlaya və 8 kilometr məsafədə zərərsizləşdirə bilir.

24 saat aktiv vəziyyətdə işləyə bilən sistemlərin artıq Azərbaycana çatdırıldığı bildirilir.

# Mirsaleh Seyidova yeni müavin təyin edildi

***Penitensiar Xidmətin rəis müavini general-mayor Məhərrəm Qafarov vəzifəsindən azad olunub.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə ədliyyə naziri Fikrət Məmmədov əmr imzalayıb.

Nazirin digər əmri ilə polkovnik Nofəl Əsədov Xidmət rəisinin müavini təyin edilib.

Qeyd edək ki, Penitensiar Xidmətin rəisi Mirsaleh Seyidovdur.

# "Qarabağda hansısa status qəbuledilməzdir" - Türkiyə MN

***"Azərbaycanın haqlı mübarizələrində yanında olmağa davam edəcəyik".***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, dünənki antiterror tədbirləri Azərbaycanın öz əməliyyatıdır: "Qarabağ Azərbaycan torpağıdır. Bundan başqa, hansısa status qəbuledilməzdir. Erməni silahlı ünsürlərinin uzun müddətdir davam edən təxribatlarına cavab olaraq Qarabağda həyata keçirilən tədbirləri, atəşkəs qərarını və bölgədəki son durumu izləyirik".

Həmçinin bildirilib ki, Türkiyə Silahlı Qüvvələri dünənki əməliyyatlarda heç bir şəkildə iştirak etməyib.

# Ölkəmiz 2 milyard manata yaxın borc qaytaracaq

***2024-cü ildə Azərbaycanda dövlət borcuna və öhdəliklərinə xidmət xərclərinin 1 972,6 milyon manat olması nəzərdə tutulur.***

"Unikal" bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 66,8 % çoxdur.

# Azərbaycanda 14 şirkət rəhbərinin ilginc tender oyunu

## Bəziləri milyonluq satınalmaları əldə etmək üçün hansı hoqqalardan çıxırlar?

***Bakıda dövlət satınalmalarında ciddi qanun pozuntusuna yol verən şirkətlərlə bağlı prokurorluqda aparılmış cinayət işinin istintaqı yekunlaşıb.***

İstintaqda "Lm Holdinq-L", "T-Delta Group Lt", "Ural As Servis", "Zirfe Tim Corp", "Star-08 Lt", "Kremon", "Qlobus Azxx Kompany", "Gold Planet Lt", "Echo Moon Lt", "Qlobal 18 Corp", "Orlondo 22 Corp", "Alfa 99 Corp", "Tean Lm" və "Cfr 22 Corp" MMC-lər tərəfindən bəzi dövlət orqanları adından hazırlanmış sənədlərə müdaxilə edilməklə saxtalaşdırılması və dövlət satınalmalarının vahid internet portalı vasitəsilə satınalan təşkilatlara təqdim edilməsinə dair pozuntular aşkarlanıb. Sözügedən şirkətlərin rəhbərləri barəsində 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham elan edilərək cinayət işi baxılması üçün aidiyyəti üzrə Nərimanov Rayon Məhkəməsinə göndərilib. İşə hakim Gültəkin Əsədovanın sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, ötən ilin dekabr ayında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti dövlət satınalmalarında ciddi qanun pozuntusuna yol verən sözügedən şirkətlərlə bağlı Baş Prokurorluğa müraciət etmişdi.

Məlum olmuşdu ki, adları cinayət işlərində hallanan şirkətlərin əksəriyyəti yeni yaradılıb. Həmçinin bir adamın adına bir neçə şirkət də eyni ünvanda və yaxud eyni vaxtda dövlət qeydiyyatından keçərək, Səhiyyə Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və digər qurumların təşkil etdiyi milyonluq tenderlərin qalibi olub. Ən maraqlısı odur ki, bu şirkətlərin rəhbərləri bəzi dövlət orqanları adından hazırlanmış sənədlərə müdaxilə edilməklə saxtalaşdırılmasına necə cəsarət ediblər? Bu qədər ciddi qanun pozuntusuna qol qoymaq cürətini haradan (yaxud kimdən) alıblar?

Doğrudanmı, onlar saxtakarlıq yolu ilə dövlətin milyonluq satınalma müsabiqələrinin qalibi olarkən heç nədən şübhələnməyiblər?



Göründüyü kimi, ortada yetərincə şübhəli məqamlar, düşündürücü suallar var. Məhkəmədə həmin suallara cavab tapılıb-tapılmayacağını zaman göstərəcək. Odur ki, gözləyək.

Hələliksə onu deyə bilərik ki, yuxarıda adı çəkilən 14 şirkətlə bağlı qanunsuzluq halları dövlət satınalmaları sahəsində nəzarətin gücləndirilməsini qaçılmaz edir. Aydın görünür ki, satınalma müsabiqələri bir çoxları üçün asan, rahat qazanc yeri olmaqda davam edir. Üstəlik, söhbət külli miqdarda məbləğlərdən, milyonlarla manatdan gedir!

Maraq üçün qeyd edək ki, 2022-ci ildə ümumi satınalmaların məbləği 6,8 milyard manata yaxın olub ki, bunun da 95%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb. Lakin ümumilikdə bu qədər böyük həcmə malik tenderlərin nə qədəri tam obyektiv, şəffaf keçirilib, bax bu müəmma olaraq qalır...

Sonda isə daha bir ilginc fakt: ötən ilin dekabrında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti dövlət satınalmalarında ciddi qanun pozuntusu ilə əlaqədar Baş Prokurorluğa müraciət etmiş, bununla bağlı rəsmi açıqlamada isə bildirilmişdi ki, müxtəlif dövlət qurumlarından daxil olmuş yekun protokollar təhlil edilərkən elektron satınalma vasitəsilə keçirilmiş açıq tenderlərdə iştirak üçün bəzi dövlət orqanları adından təqdim edilən sənədlərin sahibkarlar tərəfindən saxtalaşdırılmasına dair əsaslı şübhələr müəyyən edilib. Açıqlamada 28 şirkətin adı çəkilirdi, onlardan biri isə "Archimed" MMC idi.

Lakin maraqlı olan o idi ki, həmin MMC bu açıqlamanın üstündən cəmi bir neçə ay keçdikdən sonra dövlət qurumlarından birinin keçirdiyi və Biləsuvar rayonunda salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin təmiri işlərinin aparılmasını nəzərdə tutan tenderin qalibi elan edilmişdi. Həmin vaxt bildirilirdi ki, qalib şirkətə 210.310,94 AZN ödəniləcək.

Və ya: Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti (AQC) ötən ay Ramil Qasımzadənin "Unprice" MMC, "Korall Consulting" MMC, "Azprice" MMC, "Azvalue" MMC, "Morion" MMC, "Açar" MMC və "Sorğu Ekspert Mərkəzi" MMC adlı şirkətlər təsis edərək saxta sənədlər hazırlaması və təqdim etməsi, dövlət satınalmaları zamanı süni rəqabət təşkil etməsi və saxta yollarla dövlət tenderlərində qalib olmasına əsaslı şübhələr yaranması səbəbindən aidiyyatı dövlət qurumlarına və hüquq-mühafizə orqanlarına müraciət etmişdi. Bu barədə fed.az-ın yaydığı məlumatda deyilirdi ki, dövlət satınalmasına saxta sənədlər təqdim etməsi faktı öz təsdiqini tapdığından və digər qanunsuz əməllər törətməsinə əsaslı şübhələr yarandığından Ramil Qasımzadəyə məxsus şirkətlər - "Uniprice" MMC və "Korall Consulting" MMC Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sıralarından xaric edilib və ona aid 7 şirkətin hamısı cəmiyyətin "qara siyahısı"na salıb. Eyni zamanda Ramil Qasımzadəyə məxsus bütün sertifikatlar ləğv edilib. Lakin buna baxmayaraq, R.Qasımzadəyə məxsus şirkətlər bəzi dövlət qurumları tərəfindən elan olunan növbəti tenderlərin qalibi olub...

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

***Toğrul Əliyev***

# "Antiterror tədbirləri zamanı mülki əhali hədəf alınmayıb" - Ayxan Hacızadə

***"44 günlük müharibədən bu yana, son 3 il ərzində Azərbaycan dəfələrlə bildirib ki, ermənilər də daxil olmaqla bütün etnik qruplaRın Azərbaycan qanunvericiliyi və konstitusiyasında nəzərdə tutulmuş bütün hüquqlarını təmin etməyə hazırdır".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə "The İnsider" nəşrinə müsahibəsində deyib.

O bildirib ki, rəsmi Bakı Qarabağ bölgəsində yaşayan etnik erməniləri Azərbaycan cəmiyyətinin bir hissəsi hesab edir: "Biz milli qanunvericiliyə uyğun olaraq onların hüquq və təhlükəsizliyini qorumağa hər zaman hazırıq".

A.Hacızadə qeyd edib ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının 4-cü maddəsinə indiyədək əməl etməyib: "Ermənistan silahlı qüvvələri Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi ilə paralel olaraq geri çəkilməli idi, lakin bu yerinə yetirilməyib. Son bir neçə gün ərzində Ermənistan qoşunlarının hərbi eskalasiyaya səbəb olan təxribat-kəşfiyyat əməliyyatı nəticəsində altı polis və iki mülki şəxs həlak olub".

XİN rəsmisi bildirib ki, Azərbaycan Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı yüksək dəqiqlikli silahlardan istifadə edib: "Demək olar ki, heç bir mülki obyekt vurulmayıb. Lakin 44 günlük genişmiqyaslı müharibəyə nəzər saldıqda görərik ki, Azərbaycan tərəfdən



mülki əhali arasında itkilər Ermənistan tərəfinin mülki itkilərindən qat-qat çox olub. Bu o deməkdir ki, Azərbaycan heç vaxt mülki əhalini hədəfə almayıb".

# Namiq Zeynalovdan həbsdəki sabiq məmurlara "qara xəbər"

## Büdcə pulları hesabına şəxsi varidat sahibi olan vəzifəli şəxslər korrupsiya yolu ilə qazandıqlarını "ağız dadı" ilə yeməyə ümid etməsinlər

***Yola salmaq üzrə olduğumuz həftə Cəlilabadın həbsdə olan keçmiş icra başçısı Namiq Zeynalovun əmlaklarının müsadirə edilməsi ilə bağlı qərardan verilmiş kassasiya şikayətinə baxılıb. Belə ki, Ali Məhkəmədə keçirilən iclasda tərəflərin şikayətləri dinlənilib.***

Eks icra başçısının oğlanları - Rəsul və Fərid Zeynalovlar əmlakların müsadirədən azad olunmasını xahiş ediblər.

Məhkəmə müsadirə ilə bağlı qərarda hər hansı qanunsuzluq olmadığı üçün şikayəti rədd edib. Bakı Apellyasiya Məhkəməsinin qərarı qüvvədə saxlanılıb.



Qeyd edək ki, Namiq Zeynalov 2021-ci ildə həbs edilib. O, xüsusilə külli miqdarda mənimsəmə, israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, külli miqdarda rüşvət almaqda təqsirli bilinib. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il müddətinə azadlıqdan məhrum edilib.

Bundan başqa, iş üzrə üzərinə həbs qoyulmuş ümumi dəyəri 2 milyona yaxın olan-fərdi yaşayış evləri, "Lexus" markalı minik avtomobili, müxtəlif təyinatlı torpaq sahələri dövlət nəfinə müsadirə edilib.

Onu da xatırladaq ki, Namiq Zeynalov 2018-ci ilin fevralında Cəlilabad RİH-nin başçısı təyin edilmişdi. Lakin cəmi 3 il sonra həm kreslosunu, həm də azadlığını itirdi.

Həmin vəzifəyə qədər sabiq icra başçısı Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəis müavini vəzifəsini tutmuşdu.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda vaxtilə yüksək post tutmuş məmurların rüşvət və korrupsiya əməllərinə görə həbs olunmasından bir müddət sonra məhkəmə tərəfindən müsadirə edilmiş əmlaklarını geri qaytarmaq cəhdləri adət halını alıb. Halbuki ölkədə hər kəsə gün kimi aydındır ki, bu əmlaklara onlar məhz vəzifə səlahiyyətlərindən sui-istifadə yolu ilə, dövlət vəsaitlərini, büdcə pullarını müxtəlif üsullarla talan etmək nəticəsində yiyələniblər.

Əks təqdirdə aylıq rəsmi qazancı 1500-2000 manatdan yuxarı olmayan məmurlar dəyəri milyonlarla manata bərabər olan daşınan və daşınmaz əmlaklara necə sahiblənə bilərdilər?!

Lakin belə görünür, bu sabiq məmurlar istintaq orqanlarını da, medianı da, ictimai rəyi də kifayət qədər sadəlövh sayırlar. Və belə düşünürlər ki, gətirdikləri əcaib-qəraib "arqumentlərlə" haqlı olaraq müsadirə olunan, başdanayağa korrupsiya qoxulu varidatlarını geri qaytarmağa nail olacaqlar.

Uzağa getməyək, Namiq Zeynalovdan öncə başqa bir keçmiş icra başçısı - uzun illər İmişliyə rəhbərlik edən, barəsində hələ vəzifədə ikən ağlasığmaz yeyinti iddiaları səslənən, həbs olunduqdan sonra isə bu iddiaların doğruluğu artıqlaması ilə təsdiqlənən Vilyam Hacıyevin əndrabadi "bəhanəsini" xatırlayaq.

Hacıyevin ailə üzvləri də onun müsadirə edilən əmlaklarının geri qaytarılması üçün məhkəməyə baş vurmuşdular - eks icra başçısının həyat yoldaşı Cülyetta İbrahimova 5 milyon 218 min manatlıq mənzilləri və 2 minik avtomobilinin, oğlu Məhəmməd Hacıyev isə 126 000 manatlıq "Land Rover" markalı avtomobilin müsadirədən azad olunmasını istəyirdi.

Bəs məhkəmədə nə baş vermişdi? Dövlət ittihamçısı bildirmişdi ki, təqsirləndirilən şəxsə məxsus mənzilə və xidməti otağına baxış zamanı 2 504 057 ABŞ dolları və 1 006 470 avro, 365 ingilis funt sterlinq, 60 İsveçrə frankı, 455 türk lirəsi (ümumilikdə 6 298 834 manat) vəsait müsadirə edilib.

Vilyam Hacıyev isə bunun müqabilində yaddaşlardan uzun müddət silinməyəcək cavab vermişdi. Qayıdıb demişdi ki, həmin vəsaitlərin hamısı həyat yoldaşının babasından miras qalmış pullar olub!

Əlbəttə, bişmiş toyuğa belə şaqqanaq çəkdirəcək bu sözlər ictimai rəydə ciddi qarşılanmamışdı.

Ancaq o da aydın olmuşdu ki, büdcə pullarını, dövlət vəsaitlərini mənimsəmək üçün min bir hoqqadan çıxan məmurlar eyni hoqqalarla da oğurluq pullarının xilasına ümid eləyirlər. Həm Namiq Zeynalovun, həm də Vilyam Hacıyevin timsalında aydınlaşdı ki, bu, boşuna ümiddir.

Vəzifə səlahiyyətlərindən sui-istifadə edib dövlət vəsaitlərini mənimsəyərək bunun hesabına böyük varidat sahibi olanların korrupsiya qoxulu sərvəti əvvəl-axır dövlət nəfinə müsadirə edilməyə məhkumdur. Onların özləri dəmir barmaqlıqlar ardına məhkum olduğu kimi!

Eyni zamanda nə həbsdəki digər keçmiş vəzifəli şəxslər, nə də büdcə vəsaitlərini günü bu gün də talayaraq hətta həbs olunacaqları təqdirdə həmin vəsaitlərin axırda özlərinə qalacağına ümid bəsləyən məmurlar havayı yerə ümidlənməsinlər: bir qazancın ki, kökündə qanunsuzluq, özbaşınalıq, mənimsəmə, oğurluq, kələk dayanır, həmin qazancı ağız dadı ilə yemək kimsəyə nəsib olmayacaq!

***Toğrul Əliyev***




# "Bakı Metropoliteni" QSC-nin tenderləri ilə bağlı açıqlama

***"Unikal" qəzetinin 26 may 2023-cü il tarixli №20 (2154) buraxılışında "Zaur Hüseynovun keçirdiyi tenderlər tənqid hədəfində" başlıqlı məqalə dərc edilib.***

Məqalədə "Bakı Metropoliteni" QSC-də keçirilən tenderlərlə əlaqədar, o cümlədən bəzi tenderlər üzrə qalib elan olunmuş və müqavilələr bağlanmış müəyyən təşkilatlar barəsində məlumatlar və mülahizələr yer almışdır.

Obyektiv yanaşmanı təmin etmək və oxuculara həqiqəti çatdırmaq məqsədilə bu mövzu üzrə redaksiya tərəfindən araşdırmalar davam etdirilmişdir. Müəyyən edilmişdir ki, məqalədə adı keçmiş "Steel Materials" MMC məqalə dərc olunan tarixədək "Bakı Metropoliteni" QSC-nin keçirdiyi yalnız 2 satınalma prosedurunda iştirak etmiş, bunlardan da 04.05.2023-cü il tarixində keçirilən "müxtəlif növ tikinti materiallarının satınalınması"na dair açıq tender üsulu ilə elektron satınalmada həmin iddiaçı 8 iddiaçı sırasında ən aşağı qiymət (392.986,14 manat) təklif etmiş, tenderin nəticələrinə dair yekun protokol Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən qeydiyyata alındıqdan sonra Tərəflər arasında müvafiq müqavilə bağlanmışdır.

Məqalədə adıkeçən ''BAKI-MEXANİKİ-TƏMİR" ATSC 2021-2023-cü illər ərzində "Bakı Metropoliteni" QSC tərəfindən keçirilən satınalma prosedurlarından yalnız on üçündə iştirak etsə də, yeddisində qalib olmuşdur. "Bakı Metropoliteni" QSC-nin istismarda olan metro vaqonlarının qumla təmizlənməsi üçün tam sökülməsi, qumla təmizlənməsi, antipas boya ilə rənglənməsi, kuzovun bərpası, ikiqat akril boya ilə rənglənməsi, tam yığılması və modernləşdirilməsi işlərinin satın alınması" üzrə 03.03.2023-cü il tarixində dövlət satınalmalarının vahid internet portalı vasitəsilə keçirilən açıq tenderdə bu İddiaçı ən aşağı qiymət təklif etmiş (551.257,53 manat), həmin təşkilatla müqavilə bağlanmışdır.

Məqalədə eyni zamanda adları keçən "BEST TELEKOM" və "AZ-TEK.İN" Məhdud Məsuliyyətli Cəmiyyətlərinin "Bakı Metropoliteni" QSC-nin açıq tender metodu ilə keçirdiyi müsabiqədə iştirakları da araşdırma predmetindən kənarda qalmamışdır. "İşarəvermə və rabitə üçün avadanlıqların ehtiyat hissələrinin, aksesuarların və malmaterialların satın alınması" üzrə 2021-ci ilin iyul ayında dövlət satınalmalarının vahid internet portalında keçirilən açıq tenderdə iştirak edən "BEST TELEKOM" MMC ən aşağı qiymət (3.543.312,14 manat) təklif etdiyinə görə qalib elan olunmuş və onunla alqı-satqı müqaviləsi bağlanmışdır.

"Bakı Metropoliteni" QSC üçün inert materiallarının daşınması ilə birlikdə satınalınması"na dair vahid internet portalında 18.09.2022-ci il tarixində keçirilən tenderdə ən aşağı qiymət (5.024.118,84 manat) təklif etdiyinə görə "AZ-TEK.İN" MMC qalib seçilmiş, həmin təşkilatla alqı-satqı müqaviləsi bağlanmışdır.

Adı göstərilən şirkətlərin iştirak etdiyi və qalib elan edildikləri satınalma prosedurlarında hər-hansı qanun pozuntusu aşkar edilməmiş, əksinə həmin tenderlər üzrə yekun protokolun nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən qeydiyyata alındıqdan sonra Səhmdar Cəmiyyət qalib təşkilatlarla müvafiq satınalma müqavilələri bağlamışdır.

Beləliklə, 26 may 2023-cü il tarixli buraxılışda dərc edilmiş yuxarıda adı keçən məqalədə yer alan mülahizələr öz təsdiqini tapmamışdır.

***Sənan Mirzə***

# Azərbaycanda orta aylıq əməkhaqqı 980 manata çatacaq



***2024-cü ildə Azərbaycanda əhalinin nominal gəlirləri 84,1 milyard manat, nominal xərcləri isə 81,4 milyard manat proqnozlaşdırılıb. Bu isə 2023-cü illə müqayisədə müvafiq olaraq 8,3% və 8,6% çoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədində bildirilib.

Gələn il, həmçinin, orta aylıq əməkhaqqı 980 manat proqnozlaşdırılıb. Bu isə 2023-cü il üzrə müəyyən edilən göstəricidən 5,4% çoxdur.

Qeyd edilib ki, 2024-cü il dövlət büdcəsindən sosial müdafiə və sosial təminat üzrə xərclərinə 4 542,2 milyon manat (xüsusi çəkisi 12,5 faiz) ayrılması proqnozlaşdırılır.

Xatırladaq ki, 2023-cü ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat üzrə xərclər 4 315 933 969 manat proqnozlaşdırılıb. Beləliklə, gələn il üçün müdafiə və sosial təminat üzrə xərclər 5 faiz artırılır.

# Alimlərimiz Əli Abbasovun rəhbərliyi ilə Çində səfərdə olublar



***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi (AR ETN) İdarəetmə Sistemləri İnstitutunun (İSİ) nümayəndə heyəti baş direktor, akademik Əli Abbasovun rəhbərliyi ilə Çin Xalq Respublikasında səfərdə olublar.***

"Unikal" xəbər verir ki, səfərin məqsədi uzaqdan zondlama və müşahidə metodları ilə Yer haqqında aerokosmik informasiyanın toplanması, İpək Yolu ölkələrində Data mərkəzlərdə yerləşdirilməsi və emalı vasitəsilə BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri" proqramı çərçivəsində XXI əsrin qlobal Yer problemlərinin, o cümlədən təbii fəlakətlər, iqlim dəyişiklikləri, su resurslarının idarə olunması və digər təbiət problemlərinin həllində Çin alim və mütəxəssisləri ilə əməkdaşlığın qurulması və birgə layihələrin həyata keçirilib.

Səfər əsnasında nümayəndə heyəti Çin Elmlər Akademiyasının (ÇEA) Aerokosmik İnformasiya Tədqiqatları İnstitutunda və tədqiqat mərkəzlərində, Çin Milli Kosmik Administrasiyasının Yer Müşahidə Sistemi və Məlumat Mərkəzində, Şimali Çin (Pekin) Aerokosmik Mühəndislik Universitetində, Quançjou Universitetində və universitetlərin elmi-tədqiqat institutlarında, Şençjen şəhərində Süni İntellekt Assosiasiyasında görüşlər və müzakirələr aparmışlar. Qonaqlar, həmçinin elm-sənaye platformasına əsaslanan aşağı orbitli peyklərin Yer haqqında informasiya xidmətləri verən IPLOOK Technologies Co.,Ltd, China Communication Sevices Corporation, XXI Əsr Aerospace Technology Co. (21AT) və intellektual robotların istehsalı ilə məşğul olan DOBOT şirkətini ziyarət etmiş və yaxından tanış olmuşlar. Görüşlərdə əsasən aerokosmik informasiyanın emalı, birgə elmi-tədqiqat layihələrinin yerinə yetirilməsi və kadr hazırlığı üzrə əməkdaşlığın həyata keçirilməsi qənaətinə gəlmişlər.

Səfər müddətində Azərbaycan və Çin alimləri "Bir kəmər - Bir yol" təşəbbüsü platformasında Çin Elmlər Akademiyasının Elm Proqramı çərçivəsində fəzadan Yer kürəsinin tədqiqi məsələlərində, o cümlədən Avropa və Asiya arasında Azərbaycan Respublikasının da aktiv iştirakçısı olduğu "Orta Koridor" boyunca nəqliyyat və logistika məsələlərində elmi tutumlu problemlərin həllində birgə əməkdaşlıq üzrə müzakirələr aparmışlar.

ÇEA-nın Aerokosmik İnformasiya Tədqiqatları İnstitutu və AR ETN İdarəetmə Sistemləri İnstitutu arasında uzaqdan zondlama ilə aerokosmik informasiyanın emalı sahəsində elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Sözügedən birgə işlərin həyata keçirilməsində yuxarıda qeyd olunan Çin aerokosmik müəssisələri ilə birlikdə Azərbaycan Azərkosmos ASC, Milli Aerokosmik Agentliyi (MAKA), Milli Aviasiya Akademiyasının və AR ETN İnformasiya Texnologiyaları İnstitutunun da alim və mütəxəssislərinin iştirakı nəzərdə tutulur.

# Arxasında məmurların dayandığı kosmetoloji mərkəzlərə "yoxlama şoku"

## Azərbaycanda "gözəllik qurbanları"nın sayı artır, insanlar həm pullarından olur, həm də sağlamlıqlarından... - Müdaxilə vaxtıdır!

***Azərbaycanda fəaliyyət göstərən kosmetoloji mərkəzlərdə genişmiqyaslı yoxlamalara başlanacağı gözlənilir. Buna səbəb həmin mərkəzlərdən son vaxtlar artan şikayətlərdir.***

Belə ki, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinə (AEM) kosmetoloji fəaliyyətlə bağlı müraciətlər intensivləşib. Ona görə də qurumun hərəkətə keçərək həmin müraciətləri yerindəcə araşdırmağa qərar verdiyi bildirilir.

Bir müddət öncə AEM-dən yayılan rəsmi açıqlamada qeyd olunurdu ki, əhalini əsasən nazirlik tərəfindən kosmetoloji fəaliyyət göstərən mərkəzlərə, estetik klinikalara nəzarətin necə aparılması, həmçinin bu mərkəzlərdə çalışanların təhsili (diplomu və s.) nəzərə alınıb alınmaması maraqlandırır. Həmçinin kosmetoloji mərkəzin açılması üçün icazənin necə alınması və belə mərkəzlərə rəyin verilməsi hansı qaydalara əsasən həyata keçirilməsi aktual məsələlərdəndir.



lərin və işlərin siyahısına aid olduğundan bu fəaliyyəti göstərən müəssisələr müvafiq lisenziyalara malik olmalıdırlar".

Qeyd edək ki, sözügedən müəssisələrdə fəaliyyət göstərənlər ali tibbi təhsilli həkimlər, yəni həkim-dermatoloqlar və onların rəhbərliyi altında fəaliyyət göstərən orta tibbi təhsilli tibb personalı olmalıdırlar. Bu personal qanuna uyğun olaraq 5 ildə bir dəfə sertifikasiyaya cəlb olunur. Bu məsələyə nəzarət Səhiyyə Nazirliyi tərəfindən planlı yoxlamalar və plandankənar yoxlamalar şəklində həyata keçirilir.

Planlı yoxlamalar cari ilin sonunda növbəti il üçün qrafik şəklində müvafiq elektron resursa yerləşdirilir. Hər bir lisenziyaya malik müəssisə bu yoxlamaların siyahısı ilə tanış ola bilər. Plandankənar yoxlamalar isə ayrı-ayrı hüquqi və fiziki şəxslərdən əhalinin həyat və sağlamlığına təhlükəyə dair konkret faktlar əsasında müraciətlər daxil olduqda, habelə dövlət və yerli idarəetmə qurumlarından daxil olmuş rəsmi müraciətlər, eyni zamanda, mediada yayılmış məlumatlar əsasında təşkil olunur.

Mediada isə belə məlumatlara vaxtaşırı rast gəlinir. Məsələn, bir neçə ay öncə Bakıda dodağına və alnına dolğu vuran qadının prokurorluğa şikayət etdiyi bildirilmişdi. "Qafqazinfo"nun xəbərində deyilirdi ki, 39 yaşlı paytaxt sakini V.A. 19 fevral tarixində Nərimanov rayonu, Həsən Əliyev küçəsində yerləşən kosmetoloji mərkəzdə dodaq və alın nahiyəsinə dolğu vurdurub. Ancaq bir müddət sonra üzündə problemlərin yarandığını görüb. Həmin şəxs kosmetoloq X.Mirzəyevanın məsuliyyətə cəlb edilməsini tələb edib. Məsələ araşdırılması üçün Polis İdarəsinə yönləndirilmişdi.

Estetik cərrah Nüşabə Qədimova isə bu yaxınlarda KİV-ə açıqlamasında ilginc təfərrüatlar açıqlamışd. Onun sözlərinə görə, Azərbaycandakı bəzi həkimlər hətta çəpər əyriliyi zamanı belə xəstəni plastik əməliyyat olmağa meyllləndirirlər. Sitat: "Onlar xəstələrə lazım olan diqqəti göstərmirlər. Plastik burun əməliyyatları normalda 4 saat çəkməlidir. Lakin bizim həkimlər eyni gündə bir neçə əməliyyata daxil olurlar və 2 saata işlərini tamamlayırlar. Bəziləri özlərini peşəkar hesab edərək bu addımı atırlar, əksəriyyəti də çox pul qazanmaq üçün. Normalda həkim bir həftədə ən çoxu 4 burun əməliyyatı icra etməlidir. Bu, hobbi deyil, insan həyatıdır".

Qeyd edək ki, Azərbaycandakı bir çox iri kosmetoloji mərkəzlərin müəyyən məmurlarla, onların ailə üzvləri ilə bağlılığı barədə də iddialar dolaşır. Həmin iddialara görə, məhz bu bağlılıq səbəbindən belə mərkəzlərdən aidiyyatı qurumlara edilən şikayətlər operativliklə və yetərincə obyektivliklə araşdırılmır, bir çox hallarda isə haqqında danışılan şikayətlər nəticəsiz qalır.

Analitik Ekspertiza Mərkəzinin Tibbi Nəzarət Şöbəsinin müdir müavini Ramik Quliyev bildirmişdi ki, kosmetoloji xidmətin göstərilməsi tibbin bir sahəsi olub tibbi kosmetologiyaya daxil olan estetik problemlərin aradan qaldırılmasına yönəlib. Sitat: "Plastik cərrahiyyə aid olan fəaliyyətlər tibbi kosmetologiyaya daxil deyil. Tibbi kosmetologiya prosedurları inyeksion prosedurlar, lazer epilyasiyası, müxtəlif növ aparat kosmetologiyasını aid etmək olar. Həmçinin bu prosedurlardan geniş yayılmış biorevitalizasiya, plazmaliftinq, mezoterapiyanı da aid etmək olar. Kosmetoloji iş üzrə ambulator xidmətin göstərilməsi özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmət-

Onu da deyək ki, son vaxtlar ölkədə "gözəllik qurbanlarına" çevrilənlərin - kosmetoloji mərkəzlərdə, müxtəlif özəl klinikalarda estetik, yaxud plastik əməliyyat olunduqdan sonra arzuedilməz vəziyyətlə üzləşənlərin sayındakı artım bu müəssisələrə nəzarətin gücləndirilməsini, yoxlamaların intensivləşdirilməsini qaçılmaza çevirir. Həm də onların arxasında hansısa məmurun, post sahibinin, nüfuzlu iş adamının dayanmasına baxmadan!

**Toğrul Əliyev**

5.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Diasporumuz beynəlxalq təşkilatlarla işləməlidir!

## Toğrul Allahverdi: "Ermənistanın Azərbaycanın apardığı antiterror əməliyyatında mülki vətəndaşları hədəf alması ilə bağlı yalanları ifşa olunmalıdır"



***Azərbaycanın Xankəndi ətrafında apardığı antiterror əməliyyatından sonra ermənilər dünyaya yalnış informasiya ötürməkdə, dünyanı çaşdırmaqda davam edirlər. Erməni iftiralarına görə, Azərbaycan tərəfi antiterror əməliyyatları zamanı mülki əhalinin sığındığı sığınacaqları hədəf alır. Azərbaycan isə bəyan edib ki, ordumuz dinc əhaliyə toxunmur.***

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov açıqlamasında söyləyib ki, Qarabağda mülki əhali və mülki infrastruktur hədəfə alınmır, yalnız "legitim hərbi obyektlər" zərərsizləşdirilir. Azərbaycan Müdafiə Nazirliyinin hərbi əməliyyatlarla bağlı videogörüntülərindən də aydın görünür ki, Ermənistan tərəfinə məxsus döyüş mövqeləri, hərbi təyinatlı avtomobillər, artilleriya və zenit-raket qurğuları, radioelektron mübarizə stansiyaları və digər hərbi təyinatlı vasitələr zərərsizləşdirilib. Azərbaycan ordusu mülki əhalini və mülki infrastrukturu hədəfə almayıb. Amma Şuşa Dövlət Qoruğu İdarəsinin mühəndisinin qəlpə yarasından şəhid olması göstərir ki, düşmən bizdən fərqli olaraq yaşayış obyektlərini hədəfə alıb.

"Diaspor" İnformasiya Mərkəzinin direktoru Toğrul Allahverdi "Unikal"a açıqlamasında bildirib ki, ermənilər həqiqətə uyğun olmayan informasiyaların dünyaya yayılmasını təmin etməklə Azərbaycana təzyiqləri artırmaq niyyəti güdürlər. O, bildirib ki, ermənilərin bu günlərdə azərbaycanlılara qarşı terror aktı törətməsi, növbəti dəfə mina terroru həyata keçirməsi bir daha ermənilərin əsl niyyətlərini aşkar formada ortaya qoydu. Odur ki, Azərbaycan hərbçiləri tərəfindən lokal hərbi antiterror tədbirlərinin keçirilməsi yerində atılmış addımdır.

Həmsöhbətimiz bildirir ki, beynəlxalq ictimaiyyət Ermənistanın bu əməllərini nəhayət ki, görməlidir. Ermənistanın havadarları və düşmənə dəstək olan beynəlxalq təşkilatlar, beynəlxalq güclər Ermənistanın əsl simasının nədən ibarət olduğunu anlamalıdırlar.T. Allahverdinin sözlərinə görə, illər öncə Azərbaycan diasporu Qarabağın Azərbaycanın olduğu ilə bağlı, eləcə də torpaqlarımızın işğal olduğu barədə dünyanı məlumatlandırmağa çalışırdısa, artıq reallıqlar dəyişib. Artıq Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Azərbaycan dünyanın hesablaşdığı dövlətə çevrilib. Ona görə də, Azərbaycan diasporu da öz fəaliyyətində müəyyən dəyişiklik edir. İllər öncə dünyaya ermənilərin işğalçılıq siyasətini isbat etməyə çalışan diasporumuz, artıq zəfər çalmış toplumun nümayəndəsi kimi işini qurub. İş prinsipində dəyişiklik edərək, Avropaya həqiqətləri çatdırmağa çalışır. "Diasporumuz bu ölkələrdə ancaq bayramdan-bayrama toplaşmamalıdır. Biz artıq beynəlxalq təşkilatlarla işləməliyik, diaspor fəaliyyətindən lobbiçilik siyasətinə keçməliyik. Ona görə də beynəlxalq təşkilatlarla işləmək şərtdir".

T. Allahverdi deyir ki, bununla belə bütün məsuliyyəti diasporun üzərinə qoymaq olmaz. Bu işə dövlətdən qrant alan QHT-lər də qatılmalıdır. Onlar erməni yalanlarını ifşa etməli, dünyanı erməni yalanlarına inamamağa əsaslar olduğuna inandırmalıdırlar.

Müsahibimiz onu da bildirib ki, Azərbaycan ordusu qətiyyən dinc sakinlər və vətəndaşları hədəfə almayıb. Düşməndən fərqli olaraq, Azərbaycan yalnız əli silah tutan və azərbaycanlılara təhlükə mənbəyi hesab olunan hərbi birləşmələrin, separatçıların, quldur dəstələrinin zərərsizləşdirilməsini həyata keçirib. Bununla yanaşı, Azərbaycan bütün humanitar qaydalara, beynəlxalq hüquq və konvensiyalara riayət edir. Azərbaycan beynəlxalq hüquq və konvensiyalara söykənərək lokal xarakterli antiterror tədbirləri keçirib. Bu onun suveren torpaqlarında olan hüququdur.

Qeyd edək ki, Ermənistanın Azərbaycanın apardığı antiterror əməliyyatında mülki vətəndaşları hədəf alması ilə bağlı yalanlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində rəsmi Bakının səyləri davam etdirilir. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə xarici mediaya müsahibəsində deyib ki, 44 günlük müharibədən bu yana, son 3 il ərzində Azərbaycan dəfələrlə bildirib ki, ermənilər də daxil olmaqla bütün etnik qrupların Azərbaycan qanunvericiliyi və konstitusiyasında nəzərdə tutulmuş bütün hüquqlarını təmin etməyə hazırdır. O bildirib ki, rəsmi Bakı Qarabağ bölgəsində yaşayan etnik erməniləri Azərbaycan cəmiyyətinin bir hissəsi hesab edir: "Biz milli qanunvericiliyə uyğun olaraq onların hüquq və təhlükəsizliyini qorumağa hər zaman hazırıq".

A.Hacızadə qeyd edib ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının 4-cü maddəsinə indiyədək əməl etməyib: "Ermənistan silahlı qüvvələri Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi ilə paralel olaraq geri çəkilməli idi, lakin bu yerinə yetirilməyib. Son bir neçə gün ərzində Ermənistan qoşunlarının hərbi eskalasiyaya səbəb olan təxribatkəşfiyyat əməliyyatı nəticəsində altı polis və iki mülki şəxs həlak olub".

XİN rəsmisi bildirib ki, Azərbaycan Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı yüksək dəqiqlikli silahlardan istifadə edib: "Demək olar ki, heç bir mülki obyekt vurulmayıb. Lakin 44 günlük genişmiqyaslı müharibəyə nəzər saldıqda görərik ki, Azərbaycan tərəfdən mülki əhali arasında itkilər Ermənistan tərəfinin mülki itkilərindən qat-qat çox olub. Bu o deməkdir ki, Azərbaycan heç vaxt mülki əhalini hədəfə almayıb".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Xaricdə təhsil alanlar imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi 1 oktyabr 2023-cü il tarixində xarici dövlətlərdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə növbəti imtahan keçirəcək.***

Bu barədə "Unikal"a DİM-dən xəbər verilib. Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi sınaq imtahanında müvəffəqiyyət qazanması (keçid balının toplanması) tələb olunur.

İmtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı Agentliklə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir. Ərizəçilər ixtisasları üzrə proqramla müvafiq linklərə ("Müəllimlik", "Mühəndislik", "Hüquq") keçid etməklə tanış ola bilərlər.

Təqdim edilən proqram üzrə ərizəçilərin ixtisas biliklərinin yoxlanılması ilə yanaşı, onların ümumpeşə biliklərinin müəyyən edilməsi və situasiya-mühakimə test tapşırıqları vasitəsilə davranış səriştələrinin qiymətləndirilməsi də nəzərdə tutulur.

İmtahanda iştirakçılara 30 test tapşırığı təqdim olunacaq. Hər doğru cavab bir balla, səhv və ya cavab verilməyən tapşırıqlar sıfır balla qiymətləndirilir. Ərizəçinin imtahanda müvəffəqiyyət qazanması üçün ən azı 15 bal toplaması tələb olunur.

İmtahan 1 oktyabr 2023-cü il tarixində Dövlət İmtahan Mərkəzinin Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən binasında (8 Noyabr metrostansiyasının yanı) kompüter vasitəsilə keçiriləcək.

Qeyd edək ki, imtahanda iştirak edəcək ərizəçilərə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən müvafiq məlumat verilir.

# Hüquq-mühafizə və prokurorluq üzrə xərclər artırılır

***Gələn il proqnozlaşdırılan hüquq-mühafizə və prokurorluq üzrə xərclər açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədində bildirilib.

Sənəddə qeyd edilib ki, 2024-cü il dövlət büdcəsindən hüquq-mühafizə və prokurorluq üzrə xərclərinə 2 956,7 milyon manat (xüsusi çəkisi 8,1 faiz) ayrılması proqnozlaşdırılır.

Xatırladaq ki, 2023-cü ilin dövlət büdcəsində hüquq-mühafizə və prokurorluq üzrə xərclər 2 833 592 456 manat proqnozlaşdırılıb. Beləliklə, gələn il üçün hüquq-mühafizə və prokurorluq üzrə xərclər 2,5 faizə qədər artırılır.

Qeyd edək ki, 2024-cü il üçün dövlət büdcəsi xərcləri 36355,0 milyon manat (ÜDM-in 30,7 faizi) həcmində proqnozlaşdırılır.



## Yeni Nəsil İqtisadiyyat Strategiyasının əsas istiqamətləri açıqlanıb

***Azərbaycanda hazırlanan Yeni Nəsil İqtisadiyyat Strategiyasına "Big data", süni intellekt, "Əşyaların interneti", rəqəmsal marketinq, dron texnologiyalarının tətbiqi və digər rəqəmsal iqtisadiyyatın inkişafı üçün zəruri hesab edilən istiqamətlər daxil edilib.***

Bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Beynəlxalq Kibertəhlükəsizlik Günləri Konfransında (İCSD 2023) bildirib.

"Bunların uğurlu və dayanıqlı tətbiqi üçün kibertəhlükəsizlik baxımından kadr potensialının hazırlanması da zəruri məsələlərdəndir. Ölkəmizin kibertəhlükəsizlik sahəsində qarşıda qoyulan məqsədlərə nail olması üçün lazımi normativ-hüquqi baza hazırlanıb", - S.Məmmədov bildirib.

Onun sözlərinə görə, Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına əsasən, Rəqəmsal İqtisadiyyat Strategiyasının hazırlanması, bu sahə üzrə inkişafın təmin edilməsi üçün görüləcək işlərin effektiv koordinasiyasının təmin olunması məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən Rəqəmsal İqtisadiyyat Strategiyasının hazırlanması üzrə İşçi qrup yaradılıb. O bildirib ki, layihə sənədi İşçi qrupun üzvlərinə (İqtisadiyyat Nazirliyi və tabeliyindəki qurumlar da daxil olmaqla 17 qurum təmsil olunur) təqdim olunub.

Nazir müavini əlavə edib ki, hazırda Şərqi Zəngəzurda, Qarabağda geniş yenidənqurma işləri həyata keçirilir: "Məqsəd işğaldan azad olunan ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasıdır. Bu baxımdan rəqəmsallaşma tədbirləri də ön plana çıxır. Rəqəmsal iqtisadiyyatın tətbiqi üçün kibertəhlükəsizliyin təminatı çox vacibdir".

## Bakıda liftdə qalan 2 nəfər xilas edildi

***Ötən sutka ərzində Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhərində iki halda liftdə köməksiz vəziyyətdə qalma hadisəsi barədə məlumat daxil olub.***

"Unikal" FHN-nin saytına istinadən xəbər verir ki, məlumatla əlaqədar FHN-nin Xüsusi Riskli Xilasetmə Xidməti və Bakı Regional Mərkəzinin müvafiq xilasetmə qüvvələri çağırış üzrə cəlb olunub.

Həyata keçirilən xilasetmə tədbirləri nəticəsində 1-i uşaq olmaqla 2 nəfərə müvafiq köməklik göstərilib.

# Erməni sakinlərin nümayəndələri ilə dialoq prosesini dəstəkləyənlər 63%-dir

***Sosial Tədqiqatlar Mərkəzi Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə dialoq prosesinə dair ictimai rəyi öyrənmək məqsədilə əhali arasında sorğu keçirib.***

"Unikal" xəbər verir ki, sorğunun nəticələrinə əsasən, respondentlərin 63.3%-i dialoq prosesini dəstəklədiyini, 27.4%-i dəstəkləmədiyini ifadə edib. Sorğu iştirakçılarının 9.2%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Dialoq prosesini dəstəkləyənlərin 49.0%-i dialoqun birbaşa təmaslar yolu ilə aparılmasını üstün hesab edib. Onların 37.3%-i istənilən formatı məqbul hesab etdiyini bildirərkən, 12.2%-i vasitəçilik yoluna üstünlük verdiyini bildirib. Sorğu iştirakçılarının 1.6%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, sorğunun sahə işi (məlumatların toplanılması) 2023-cü ilin 08 - 11 sentyabr tarixləri arasında icra olunub. Sorğular telefonla müsahibə formasında keçirilib və 18 yaşından yuxarı 390 respondent iştirak edib.

Sorğu 12 iqtisadi rayonu əhatə edib. Respondentlərin gender bərabər-



liyi qorunmaqla seçmə çərçivəsi əhali sayına proporsional müəyyən olunub. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

Sosial Tədqiqatlar Mərkəzi Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə dialoq prosesinə dair ictimai rəyi öyrənmək məqsədilə əhali arasında sorğu keçirib. Sorğunun nəticələrinə əsasən, respondentlərin 63.3%-i dialoq prosesini dəstəklədiyini, 27.4%-i dəstəkləmədiyini ifadə edib. Sorğu iştirakçılarının 9.2%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Dialoq prosesini dəstəkləyənlərin 49.0%-i dialoqun birbaşa təmaslar yolu ilə aparılmasını üstün hesab edib. Onların 37.3%-i istənilən formatı məqbul hesab etdiyini bildirərkən, 12.2%-i vasitəçilik yoluna üstünlük verdiyini bildirib. Sorğu iştirakçılarının 1.6%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, sorğunun sahə işi (məlumatların toplanılması) 2023-cü ilin 08 - 11 sentyabr tarixləri arasında icra olunub. Sorğular telefonla müsahibə formasında keçirilib və 18 yaşından yuxarı 390 respondent iştirak edib.

Sorğu 12 iqtisadi rayonu əhatə edib. Respondentlərin gender bərabərliyi qorunmaqla seçmə çərçivəsi əhali sayına proporsional müəyyən olunub. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

# Aqrar sığorta ilə bağlı regional tədbir keçirilib

***Qazax rayonunda "Dayanıqlı fermer fəaliyyəti üçün aqrar sığorta" mövzusunda regional tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, Aqrar Sığorta Fondu və Qazax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qazax-Tovuz iqtisadi rayonunda aqrar sığortanın əhəmiyyəti, faydaları və fermerlər üçün üstünlükləri açıqlanıb. Azərbaycanda baş verən təbii fəlakətlər, dolu və sel-subasma hadisələrinin təsərrüfatlara vurduğu zərər və fermerlərə ödənişlərə başlanması ilə bağlı vəziyyət müzakirə edilib.



Tədbirdə çıxış edən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov son illər Qazax rayonunda aqrar sahənin sürətlə inkişaf etdiyini, əkin sahələrinin, xüsusilə də suvarılan sahələrin artdığını qeyd edib. Rayon ərazisində taxılla yanaşı, meyvə bağları və tərəvəz sahələri də artır. İcra başçısı bildirib ki, bu işlərə investisiya yatıran fermer, sahibkar və şirkətlər sahələrin qorunmasının da qayğısına qalmalı və dövlətin əlverişli şərtlərlə təqdim etdiyi aqrar sığorta vasitəsilə sahələrini sığorta etməlidirlər.

Qeyd edək ki, Qazax-Tovuz bölgəsi Gəncə-Daşkəsən regionu ilə birlikdə Azərbaycanda iqlim hadisələrinin ən çox baş verdiyi bölgələrdəndir. Araşdırmalar göstərir ki, ölkə ərazisində hər il qeydə alınan dolu hadisələrinin yarıdan çoxu bu regionların payına düşür, bu il baş verən qeyri-sabit hava şəraiti və təbii fəlakətlər də regiona zərər vurub.

Tədbirdə çıxış edən Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov xatırladıb ki, aqrar sığorta dövlətin fermerlərə mühüm dəstək mexanizmidir və aqrar sığorta haqqının 50%-ni də fermerlərə dəstək üçün dövlət özü ödəyir. O qeyd edib ki, 2022-2023-cü illərdə Qazax-Tovuz regionunda fermer və təsərrüfatlara 205 min manatdan artıq ödəniş edilib. Fuad Sadıqov bildirib ki, 2023-cü ildə müşahidə olunan qeyri-sabit hava şəraiti, sel və daşqınlar səbəbindən sığorta hadisələri kəskin artıb. Nəticədə bu il sığorta ödənişlərinin daha da artacağı gözlənilir. Hadisələr nəticəsində fermerlərə dəyən zərərin ödənilməsinə yaxın günlərdə başlanılacaq, artıq Aqrar Sığorta Fondu bununla bağlı zəruri ehtiyatları yaradıb.

Tədbirdə aqrar sığorta vasitəsilə əkin sahələri və heyvanların sığortalanması, hadisə baş verərkən ödəniş prosesinin detalları ilə bağlı geniş məlumat verilib. Bildirilib ki, iribuynuzlu və xırdabuynuzla heyvanları cüzi məbləğ ödəməklə sığortalamaq olar. Xüsusilə son aylar baş verən sel və daşqın hadisələri zamanı heyvanları sel apardığı xatırlanıb və bildirilib ki, qiyməti 300 manat olan qoyun və keçiləri cəmi 9-10 manata, qiyməti 2000 manat olan inəkləri isə 61-95 manata sığorta etmək mümkündür. Qeyd edilib ki, bir neçə ay əvvəl rayondakı təsərrüfatlardan birində 80 baş xırda buynuzlu heyvanı sel aparıb və təsərrüfata 25 min manat zərər dəyib, halbuki qat-qat kiçik məbləğ ödəməklə onları sığorta etmək olardı. Qazax-Tovuz regionunda meyvə bağlarının sahəsinin sürətli artması qeyd edilib və bildirilib ki, müxtəlif meyvə bağlarında 1000 manatlıq məhsulu qorumaq üçün cəmi 20-30 manat sığorta haqqı ödəmək kifayətdir. Fermer və təsərrüfat sahibləri sel-subasma və 3-cü şəxslərin hərəkəti nəticəsində dəyən zərərlərə görə ödənişlərin verilməsi, dəyən zərərin hesablanması ilə bağlı sual və təkliflərini səsləndiriblər.

Tədbirdə fermerlərin tez-tez rastlaşdığı suvarma və quraqlıq probleminə də toxunulub. Aqrar Sığorta Fondunun sədri Fuad Sadıqov bildirib ki, qarşıdakı illərdə Azərbaycanda dəmyə ərazilərində taxıl əkinlərinin quraqlıqdan sığortalanması ilə bağlı işlər aparılır. Fond rəhbəri fermerləri aqrar sığortadan faydalanmaq üçün əkin sahələrini sığortalamağa, eləcə də əldə edəcəkləri məhsulun həcmini düzgün bəyan etməyə çağırıb. Tədbirdə Aqrar Sığorta Fondunun elektron yenilikləri - "Aqrar Sığorta Kalkulyatoru" və "Sığorta şəhadətnaməsini yoxla" xidmətləri barədə məlumat verilib.

# Magistraturaya qəbul imtahanına dəyişiklik edildi



***Məlum olduğu kimi, magistraturaya qəbul imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada bir mərhələdə keçirilir və imtahanda bakalavrların məntiqi təfəkkürü, informatika və xarici dil üzrə bilikləri qapalı (çoxseçimli) və açıq tipli test tapşırıqlarından istifadə edilməklə yoxlanılır.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, 2024-cü ildən etibarən magistraturaya qəbul imtahanında iştirak etmək istəyən namizədlər xarici dil imtahanında çoxpilləli təhsil sistemi çərçivəsində mənimsədikləri bilik və bacarıqları, söz ehtiyatı, praktik qrammatikanın əsaslarını nitq fəaliyyətinin növləri üzrə (danışıq bacarığı istisna olmaqla) kompleks şəkildə, yəni dinləyib-anlama, oxuyub-anlama və ilk dəfə olaraq yazı bacarıqları əhatə olunmaqla nümayiş etdirməlidirlər.

Xatırladaq ki, magistraturaya qəbul imtahanlarında 2024-cü ildən etibarən yazı bacarıqlarının yoxlanılacağı ilə bağlı məlumat hələ 2021-ci ilin sonlarında nəşr olunan "Magistr" 1 jurnalında, həmçinin sonrakı nəşrlərdə verilib.

Magistratura səviyyəsinə qəbul imtahanında bakalavrlar yazı bacarıqlarının yoxlanılması üçün onlara təqdim edilən iki esse mövzusundan birini seçməklə həmin mövzu ətrafında fikirlərini də ifadə edəcəklər.

Esse yazarkən namizədlərə qoyulan tələblər bunlardır:

Esse seçilmiş xarici dildə olub verilmiş mövzuya uyğun işlənməli;

Tərkib hissələri (giriş, əsas hissə (bir neçə abzasdan ibarət ola bilər) və nəticə) abzaslarla fərqləndirilməli;

Həcmi 150-200 söz olmalı;

Tərkib hissələri arasındakı məntiqi rabitə gözlənilməli;

Publisistik üslubda olmalı;

Essenin mövzusu dolğun şəkildə şərh edilib, əhatə olunmalı;

Neytrallıq qorunmaqla mövzu ilə bağlı müstəqil fikir yürüdülməli;

Fikirlərin əsaslandırılması üçün müxtəlif sübutedici mənbələrdən yerli-yerində istifadə edilməli;

Akademik yazı qaydalarına əməl edilməlidir.

Aşağıda nümunə esse mövzuları təqdim olunur:

Neighbours are the people who live near us. In your opinion, what are the qualities of a good neighbour? Use specific details and examples to support your answer.

Some people prefer to spend their free time outdoors, others tend to spend their leisure time indoors. Would you prefer to be outside or inside for your leisure activities? Use specific reasons and examples to explain your choice.

It is better for children to grow up in the countryside than in a big city. Do you agree or disagree? Use specific reasons and examples to develop your essay.

Some people say that the Internet provides people with a lot of valuable information. Other think access to so much information creates problems. State whether you agree or disagree with these statements and support your point of view.

Qiymətləndirmə meyarları və balların hesablanma qaydası haqqında məlumat yaxın zamanda paylaşılacaqdır.

Magistratura səviyyəsinə qəbul üzrə bakalavrların danışıq bacarıqlarının qiymətləndirilməsinin isə növbəti illərdə aparılması nəzərdə tutulur.

# Ağcabədidə torpaq kanala beton üzlük çəkilir

***Ağcabədidə torpaq kanal beton üzlüyə alınır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ağcabədi Suvarma Sistemləri İdarəsi rayon ərazisində ümumilikdə 63000 ha əkin sahəsinə xidmət edir.***

Suvarma Sistemləri İdarəsinin əsas fəaliyyəti idarənin balansında olan 2261 km suvarma kanalı, 2549 km kollektor drenaj şəbəkəsi, 4445 ədəd hidrotexniki qurğu, 54 ədəd elektrik nasos stansiyası, 1026 ədəd subartezian quyusu, 8 ədəd səyyar nasoslar, 2 ədəd üzən nasos, 3 ədəd inzibati və 16 ədəd yaşayış binasının istismarı və təmiri ilə məşqul olmaqla balansda olan əkin sahələrini suvarma suyu ilə təmin etməkdən ibarətdir. Su itkisinin qarşısının alınması və fermerlərə çatdırılmasını asanlaşdırmaq üçün torpaq məcralı kanallar beton üzlüyə alınır, və lildən təmizləmə işləri davam edir. Hazırda rayon ərazisində 9 km məsafədə kanal beton



üzlüyə alınır.

Cari ildə idarə tərəfindən 11493 ha pambıq sahəsi səpsuvar və 3-cü suvarma suyu ilə təmin olunub, əkilmiş payızlıq 25 min hektara yaxın taxıl sahəsinin suvarılması aparılaraq biçilib. Bundan başqa digər kənd təsərrüfatı bitkilərinin də suvarılması normalara uyğun olaraq həyata keçirilib. Fermerlər bu il əvvəlki illərdən fərqli olaraq daha bol məhsul əldə edəcəklərini bildirirlər. Hazırda pambıq sahələrində bu müşahidə etmək mükündür.

2023-cü ilin 9 ayı ərzində su təsərrüfatı obyektlərinin təmiri, genişləndirilməsi və bərpası planı aşağıdakı kimi yerinə yetirilib. Suvarma kanallarının lildən təmizlənməsi 229 km, öz gücü ilə 811 min.m3, kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi 155 km, öz gücü ilə 705 min.m3 təşkil edib. Bundan başqa cari ildə idarənin balansında olan nasos stansiyalarda cari təmir işləri də aparılıb. 398 ədəd subartezian quyuları da cari təmir olunub. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən rayon ərazisində 29 ədəd yeni subartezian quyusunun qazılması işləri davam edir.

Qeyd edək ki, Ağcabədi rayonunda əsas su mənbəyi Yuxarı Qarabağ kanalı, Araz çayının qolu olan Xan qızı kanalı və subartezian quyularıdır.



# Ömrünü Vətəninə verən igid

***Famil Əlizadəni Vətəninə, xalqına sonsuz məhəbbəti şəhidlik zirvəsinə ucaltdı. 1999-cu ildə Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya göz açın Famil Habil oğlu həyatı dərk edən gündən doğma Azərbaycanın müqəddəsliyinə tapınmaqla onun hər qarışını özünə əziz bilib.***

Odur ki, yağı düşmənin əzəli, əbədi yurd yerimiz Qarabağ torpaqlarına təcavüzü onu heç rahat buraxmırdı. Elə birinci arzusu Qarabağı azad görmək olur, qönçə ömründən keçməklə arzusu çiçək açır. Bir də bu ilahi sevgi Famili cismən bizdən ayırsa da, gələn xoşbəxt günlərə işıq olmaq üçün onu əbədi parlaq günəşə çevirdi. Milyonların ürəyində əbədiləşən qəhrəmanlıq əfsanəsinə həm də ölümündən sonra dövlət tərəfindən verilən "Vətən uğrunda" və digər medallar əlavə olundu. Fəqət özü tez getdi, xalqı, milləti üçün qoyduğu neçə-neçə gələn nəsillərə örnək olacaq saf Vətən sevgisi oldu.

Vətən üçün böyüyən Famil 2016-cı ildə Ərkivan qəsəbə 3 saylı tam orta məktəbi bitirib, təhsilini 2 sayli Bakı Peşə Liseyində davam etdirib. Elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru peşəsinə yiyələnib. Bu müddətdə yüksək mədəniyyəti, əxlaqı, fəal vətəndaşlıq mövqeyi ona böyük hörmət, el-oba sevgisini qazandırır. 2017-ci ilin iyulunda ordu sıralarına yola düşəndə dostların, qohumların qarşısında and içir ki, məqam gəlsə son damla qanıma qədər yağı düşmənlə döyüşüb Vətənimin qisasını alacağam. Qoy, adım bütün elimə baş ucalığı olsun...

Bəli, cəbhə bölgəsində həqiqi xidmətə başlayan Famil Əlizadə bunu özünə fəxr bilir, Vətən qarşısında müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirir. Əsgər yoldaşlarına nümunə olan Famil bütün təlimlərə həvəslə gedir, hərbin sirlərinə mükəmməl yiyələnir. Vətən torpağını qorumaq ,mübarizliklə yağıya qalib gəlmək onun həyat amalına dönür.

2020-ci ilin yanvarında ordudan tərxis olunub alnıaçıq evinə dönən Famil heç cür rahatlıq tapa bilmir. Ürəyində mənfur düşmənə kin, nifrət ondan alacağı öcün vaxt-vədəsini gözləyir.

27 sentyabrda İkinci Qarabağ müharibəsi başlayanda bir çox qeyrətli, igid oğullar tək Famil də könüllü ön cəbhəyə yollanır və ilk gündən Vətən torpaqların azad olunması uğrunda ölüm-dirim savaşına qatılır. Cəbhə boyu əksər döyüşlərdə qəhrəmanlıqla, qələbəyə böyük inamla vuruşur. Füzuli rayonunun, eləcə Yuxarı Əbdürrəhmanlı kəndinin düşməndən alınmasında igid döyüşçü hünər göstərir. Dığaların çoxsaylı canlı qüvvəsini, saysız-hesabsız texnikasını məhv etməklə, özü də şəhidlik zirvəsinə yüksəlir. Beləcə Famil Vətəni üçün canında keçdiyi üçün qısa ömür yolu əsl qəhrəmanlıq simvolu olaraq əbədiyyət qazanır.

***Zəfər Orucoğlu, AJB üzvü***



## Putin Ukrayna ilə danışıqlara hazır olduğunu bildirdi

***Rusiya Prezidenti Vladimir Putin Sankt-Peterburqda Çinin baş diplomatı Vanq Yi ilə görüşündə bir daha bəyan edib ki, Ukraynadakı xüsusi əməliyyata son qoymaq üçün danışıqlara hazırdır.***

”Unikal” xəbər verir ki, bu barədə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyinin görüşlə bağlı məlumatında deyilir.

Çin diplomatik xidməti qeyd edib ki, danışıqlar zamanı tərəflər mövcud beynəlxalq və regional vəziyyətlə bağlı fikir mübadiləsi apardılar.

”Ukrayna məsələsinə gəlincə, Putin Rusiyanın bu problemi dialoq və danışıqlar yolu ilə həll etməyə hazır olduğunu  təsdiqləyib”, - mesajda deyilir.

***Gülayə Mecid***

## "Azərbaycanın verdiyi siyahıda mən də ola bilərəm" - Seyran Ohanyan

***”Hesab edirəm ki, hazır sənəd var və o sənəddə artıq hər şey deyilir. Yevlax danışıqları da həmin sənəd ətrafında aparılacaq və Qarabağın erməni əhalisinin taleyi həll olunacaq”.***



”Unikal” erməni KİV-ə istinadən xəbər verir ki, bunu Ermənistan parlamentinin partiya rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan deyib. ”Bu gün bir çoxları həmin sənədin imzalanması ilə bağlı hakimiyyəti tənqid edir, lakin bu gün heç kimin tənqid etməyə haqqı yoxdur, çünki Ermənistan hakimiyyəti Azərbaycan hakimiyyəti ilə üz-üzə dayanaraq ”Artsax”ı tək qoyub. Ola bilər ki, xalqın bir hissəsi Ermənistana gəlsin, amma bir hissəsi orada qalacaq”.

O, Qarabağda qətliam törədən erməni cəlladlarının Azərbaycana təhvil verilməsi məsələsinə də toxunub: ”Siyahıda kimin olduğunu bilmirəm, mən də o siyahıda ola bilərəm”.

***Ağarza Elçinoğlu***

## İran üçün qonşu ölkələrin təhlükəsizliyi vacibdir

***İran üçün qonşu ölkələrin təhlükəsizliyi vacibdir.***

”Unikal” xəbər verir ki, bunu İran Prezidenti İbrahim Rəisi Nyu-Yorkda BMT Baş Assambleyasının illik debatlarında çıxışı zamanı deyib. O, Qərb dövlətlərini regionda sabitliyi pozmağa yönəlmiş açıq cəhdlərə görə tənqid edib.

Rəisinin fikrincə, bəzi ölkələr Soyuq müharibə ruhunda qlobal səviyyədə bloklar yaratmağa çalışırlar.

# “Vaqner” Suriyanı tərk edir

***Rusiyanın ”Vaqner” özəl hərbi şirkəti Suriyadakı mövqelərini tərk edir. İran bundan istifadə edərək regiona nəzarətini genişləndirə bilər.***

”Unikal” xəbər verir ki, bu barədə Amerika Müharibənin Tədqiqi İnstitutunun (ISW) hesabatında deyilir. Ekspertlər qeyd edirlər ki, avqustun 27-də Rusiya Federasiyasının Müdafiə Nazirliyi ”Vaqner”ə Suriyanı tərk edərək Rusiya silahlı qüvvələrinə qayıtmaq və ya ona qoşulmaq əmri verib. Hazırda Suriyada 1500-dən çox “Vaqner” muzdlusu, həmçinin özəl hərbi şirkətin himayəsi altında



3000-ə yaxın yerli suriyalı döyüşçü fəaliyyət göstərir. Bəzi rusiyalı hərbi blogerlər muzdluların Rusiya Müdafiə Nazirliyinə qayıtmaqdansa, öz aktivlərini İrana ötürməsinin daha sərfəli ola biləcəyini irəli sürüblər.

””Vaqner”in Suriyadan geri çəkilməsi İran üçün regionda daimi və sərfəli mövcudluq perspektivini açır. İran Suriyanın mərkəzi səhrasının ərazisindən Levant vasitəsilə öz etibarlı tərəflərini silah və hərbi texnika ilə təmin etmək üçün istifadə edir”, - ekspertlər vurğulayıblar.

Xatırladaq ki, Suriyada ”Vaqner” özəl hərbi şirkətinin silahlıları saxlanılır.

***Gülayə Mecid***

# "Küçədən gələn müxbir Ermənistanı fırladır" - Eks-nazir

***”Ermənistanın baş naziri dünənki çıxışında ”Artsax”la bağlı bir kəlmə belə rəğbət ifadə etmədi. O, qurbanlara bir kəlmə də olsun başsağlığı vermədi. O, sülhə getməkdən və başqa şeylərdən danışırdı”.***

”Unikal” xəbər verir ki, bu barədə Milli Assambleyanın Ermənistan fraksiyasının rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan yerli KİV-ə açıqlamasında deyib.

”Küçədən gələn keçmiş müxbirin hakimiyyətə gəlib bu ölkəni, bu xalqı istədiyi kimi fırlatmasına daim dözmək olmaz. Bunun sadəcə qəbuledilməz olduğunu başa düşmək lazımdır. Xalq ayağa qalxıb həmin şəxsi hakimiyyətdən uzaqlaşdırmalıdır. Qoy, xalq öz hökumətini seçsin, amma Ermənistan və ”Artsax”a böyük daş atan bu hökuməti yox”, - o əlavə edib.

***Gülayə Mecid***



# İran Qarabağda atəşkəs razılaşmasının əldə olunmasını alqışlayıb

***İran Rusiyanın vasitəçiliyi ilə Qarabağda atəşkəs razılaşmasının əldə olunmasını alqışlayıb.***

”Unikal” xəbər verir ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü Naser Kənani hər iki tərəfi fikir ayrılıqlarının Azərbaycanın ərazi bütövlüyü çərçivəsində “dialoq və sülh mexanizmləri” ilə həllinə diqqət yetirməyə çağırıb. Onun sözlərinə görə, müharibə



dağıntı və nifrətin yayılmasından başqa heç bir nəticə vermir, regionun sabitliyini və təhlükəsizliyini təhdid edir. Razılaşmanı alqışlayan diplomat bölgədə hərbi əməliyyatların davam etdirilməsi üçün artıq heç bir əsasın olmadığını bildirib və bölgədə daha müharibələrin olmayacağına ümid etdiyini bildirib.

***Gülayə***

# Daha bir ölkə nüvə silahı əldə edə bilər

***”İranın nüvə silahı varsa, Səudiyyə Ərəbistanının da nüvə silahı olmalıdır”.***

”Unikal” xəbər verir  ki, bunu ”Fox News” telekanalına müsahibəsində Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman deyib. Onun sözlərinə görə, İranda nüvə silahının olması potensial təhlükədir: ”İran nüvə silahı əldə etsə də və ya hər hansı bir ölkə nüvə silahından istifadə etsə belə, bu, o deməkdir ki, onlar bütün dünya ilə müharibə aparırlar. Dünya başqa bir Xirosimanı görməməlidir. Əgər dünya 100 min insanın öldürüldüyünü görürsə, bu o deməkdir ki, siz dünyanın qalan hissəsi ilə müharibə edirsiniz”.



# "Bəşəriyyət cəhənnəmin qapılarını açıb" - Quterreş

***BMT-nin baş katibi Antonio Quterreş bəşəriyyətin cəhənnəmin qapılarını açdığını bildirib.***

”Unikal” xəbər verir ki, o, bu barədə İqlim Ambisiya Sammitində çıxışı zamanı danışıb.

”Bizim diqqətimiz iqlim problemlərinin həllinə yönəlib və bu



vəzifə aktualdır. Bəşəriyyət cəhənnəmin qapılarını açıb: istilər dəhşətli nəticələr verir, yanğınlar tüğyan edir”, - deyə təşkilatın baş katibi izah edib.

Onun sözlərinə görə, bəşəriyyət addım-addım “qeyri-sabit dünyaya” yaxınlaşır.

# "Neftçi" və "Zirə" arasında keçiriləcək oyunların yeri dəyişdirildi

***Bir müddət öncə renovasiya işlərinə start verilmiş "Neftçi Arena"nın son durumu Peşəkar Futbol Liqası tərəfindən araşdırılıb.***

Bu barədə PFL-in saytı məlumat yayıb. Məlum olub ki, stadionun ot örtüyü hazırda oyunları qəbul etməyə tam hazır deyil. Peşəkar Futbol Liqası tərəfindən mövsümdən öncə qəbul olunmuş digər stadionların hazırkı cədvəli və ümumi durumu uyğun olmadığı üçün "Neftçi" klubunun rəsmi müraciətini, "Zirə" klubunun razılıq məktubunu əsas götürən PFL "Neftçi" və "Zirə" klubları arasında keçiriləcək 1-ci və 2-ci dövrə görüşlərinin yerini dəyişdirib.



Belə ki, şənbə günü keçiriləcək "Zirə" - "Neftçi" oyunu Zirə İdman Kompleksində olacaq. Oyun saat 20:30-da start götürəcək.

Qeyd edək ki, bu qərar əvəzedici komandalara aid edilmir.

# Mahirin komandası "Astana"ya qarşı

***Azərbaycan millisinin üzvü Mahir Emrelinin də çıxış etdiyi Zaqreb "Dinamo"su bu gün Konfrans Liqasının qrup mərhələsində ilk oyununa çıxacaq.***

Qol.az xəbər verir ki, Xorvatiya təmsilçisi C qrupunda Qazaxıstan "Astana"sını qəbul edəcək. Oyun Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

"Dinamo" ilə "Astana" bu mövsüm Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində də qarşılaşıblar. Hətta cavab görüşündə Mahir Emreli baxımlı qola imza atıb. "Dinamo" 2 oyunun cəmində (4:0, 2:0) qalib gələrək 3-cü təsnifat mərhələsinə adlamışdı. Lakin Zaqreb klubu bu dəfə AEK səddini keçə bilməyib və Avropa Liqasının pley-off mərhələsində çıxış edib. Burada Praqa "Sparta"sına uduzan (3:1, 1:4) "Dinamo" Konfrans Liqasının qrup mərhələsinə vəsiqə əldə edib.

Bu qrupun digər matçında isə "Viktoriya" (Çexiya) "Balkani" (Kosovo) ilə üz-üzə gələcək.



**C qrupu**

23:00. "Dinamo" (Zaqreb, Xorvatiya) - "Astana" (Qazaxıstan)

23:00. "Viktoriya" (Çexiya) - "Balkani" (Kosovo)

# "Qələbədən başqa seçim imkanımız yox idi"

***Azərbaycanın futzal üzrə milli komandasının üzvü Qallo DÇ-2024-ün elit-raundunda ötən gün Niderlandı darmadağın etdikləri matç (6:1) haqqında danışıb.***

"Unikal" xəbər verir ki, o, azfutzal.az-a açıqlamasında azarkeşlərin qarşısında daha yaxşı çıxış etdiklərini deyib: "Doğma meydanda oynadığımıza görə, qələbədən başqa seçim imkanımız yox idi. Azərbaycan millisi azarkeşləri önündə daha yaxşı oynayır. Düzdür, ilk matçdan məğlub döndük. Həmin qarşılaşmada da pis çıxış etməmişdik, sadəcə epizodları realizə edə bilmədik. Bu dəfə əksəriyyətini qola çevirməyi bacardıq. Nəticədə böyükhesablı qələbə qazandıq".

Müdafiəçi növbəti matç -



Qazaxıstana qarşı keçirəcəkləri görüş haqqında da fikirlərini bölüşüb: Növbəti oyunumuz qrup lideri Qazaxıstana qarşı olacaq. Bu komandanın gücü, oyunu haqda danışmaq artıq olar. Amma biz Bakıda fərqli oynayacağıq. Rəqib üçün burada meydana çıxmaq çətin olacaq. Onlar dəfələrlə Avropa və dünya çempionatlarının final mərhələsində oynayıblar. Lakin biz də zəif komanda deyilik. Əlbəttə, prioritet 3 xal qazanmaq olacaq. Çünki DÇ-nin final mərhələsinə vəsiqə qazanmaq istəyirik. Azarkeşlərə təşəkkür edirik, bu gün bizi dəstəklədilər. Onlardan Qazaxıstanla oyunda yenidən zala gəlməyi, dəstək verməyi istəyirik".

O, qrup liderliyi üçün şansların bərabər olduğunu dilə gətiri: "Qrup liderliyinə gəldikdə, şansımız davam edir. Hətta 50-nin 50-yə olduğunu deyə bilərəm. Qazaxıstanı Bakıda yensək, mübarizə yenidən başlayacaq. Sona qədər mübarizə aparacağıq. İndidən liderlikdən əlimizi üzdüyümüzü demək olmaz. Qarşıdakı oyun çox suala aydınlıq gətirəcək".

Qeyd edək ki, turnir cədvəlində Qazaxıstan 6 xalla liderdir. Rumıniya 3 xalla 2-ci,eyni xalı olan Azərbaycan isə 3-cüdür. Aktivinə xal yazdırmağı bacarmayan Niderland sonuncudur.

# "İnter Mayami" rəqibini darmadağın etdi

***Məşhur futbolçu Lionel Messinin də formasını geyindiyi "İnter Mayami" MLS-də 30-cu tur oyununa çıxıb.***

Qol.az xəbər verir ki, komanda "Torontonu" qəbul edib. "İnter Mayami" stadionunda baş tutan görüş meydan sahiblərinin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qolları 45+3-cü dəqiqədə Fakundo Farias, 54 və 87-ci dəqiqələrdə Robert Teylor (dubl) və 73-cü dəqiqədə Benjamin Cremaşi vurub.

Argentinalı hücumçu Lionel Messi meydana start heyətdə daxil olub və 37-ci dəqiqədə əvəzlənib.

Qeyd edək ki, "İnter Mayami" son 4 oyunda 3-cü qələbəsini qazanıb. Komanda hazırda turnir cədvəlində 31 xalla 13-cüdür.



# Çempionlar Liqasında həftənin ən yaxşı futbolçusu

***UEFA Çempionlar Liqasının qrup mərhələsinin I turunun oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər müəyyənləşib.***

Bu ada İspaniya "Barselona"sından Joau Feliks, "Real"dan Cud Bellingem, İngiltərə "Arsenal"ından Martin Edeqor, Portuqaliya "Portu"sundan Qaleno iddia edir.

Qeyd edək ki, qalib UEFA-nın rəsmi saytında azarkeşlərin səsverməsindən sonra bəlli olacaq.

# "Qarabağ" Avropa Liqasının qrup mərhələsində mübarizəyə başlayır

***"Qarabağ" bu gün UEFA Avropa Liqasının qrup mərhələsində ilk oyununu keçirdi.***



"Unikal" xəbər verir ki, Qurban Qurbanovun baş məşqçisi olduğu komanda I turda Bakıda Norveç "Molde"si ilə üz-üzə gəldi.

Tofiq Bəhramov adına Respublika stadionunda reallaşacaq qarşılaşma saat 20:45-də başlayıb.

Görüşü şotlandiyalı Con Bitonun rəhbərlik etdiyi hakimlər briqadası idarə edəcək. H qrupunun digər matçında Almaniyanın "Bayer 04" komandası İsveç "Hakken"ini qəbul edəcək. Bu oyun da eyni saatda start götürəcək.

UEFA Avropa Liqası, qrup mərhələsi

**I tur**

20:45. "Qarabağ" - "Molde" (Azərbaycan)

Baş hakim: Con Biton (Şotlandiya).

Bakı. Tofiq Bəhramov adına Respublika stadionu.

"Araz-Naxçıvan"ın zədəliləri heyətə qayıtdı

Növbəti turda "Səbail"lə qarşılaşacaq "Araz-Naxçıvan" matça hazırlığını davam etdirir.

Komanda bu gün Bakı Olimpiya Stadionunun ehtiyat meydançasında bir məşq keçəcək. "Neftçi" ilə matçın gedişində zədələnən və buna görə də son iki məşqdə iştirak etməyən Vadim Abdullayev artıq sıraya dönüb. U-21-in düşərgəsində zədələnən və buna görə də adı "Neftçi" ilə oyunun protokoluna daxil edilməyən Abdulla Rzayevdən də xoş xəbər var. Komandanın həkimi Anar Nəsibov müdafiəçinin bugündən fərdi məşqlərə başlayacağını bildirib.

Əvəzedicilərin oyununda zədələnən əsas komandanın üçüncü qapıçısı Vüsal Şabanov isə bir müddət müalicə olunacaq.

Qeyd edək ki, sentyabrın 24-də Bayıl qəsəbəsində yerləşən "ASCO Arena"da keçiriləcək "Səbail" - "Araz-Naxçıvan" oyunu saat 19:30-da başlayacaq.